# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."



Qəzet 1932-ci ildən çıxır № 01-02 (6763-6764) 2 fevral 2016-cı il Cəbrayıl RİH-nin orqanı


## 2 FEVRAL AZƏRBAYCANDA GƏNCLƏR GÜNÜDÜR

**Yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşüb. Dövlət başçısı görüşdə nitq söyləyib.**

*Yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşüb.*



***Görüşdə Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup gəncə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomları təqdim olundu. Sonda xatirə şəkli çəkdirildi.***

Gənclər isə əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Hətta sovet dövründə dilimizi, adət-ənənələrimizi, bayramlarımızı qorumuşuq. Yadımdadır, Moskvada oxuyanda Novruz bayramında bufetə şəkərbura, paxlava, səməni gətirəndə məni orada tənqid edir, tənbeh edirdilər ki, Əliyev burada dini bayramı qeyd edir. Yəni, o da olub. Amma qorumuşuq və müdafiə etmişik. Baxmayaraq ki, Novruz bayramı dini bayram deyil, indiki şəraitdə əlbəttə, biz onu qorumalıyıq. Çünki indi başqa risklər, başqa çağırışlar var - qloballaşma, digər kənar təsirlər. Bəzi xarici dairələr gənclər arasında iş aparırlar və aydındır ki, bunun məqsədi nədir. Məqsəd özləri üçün dayaq yaratmaqdır. O dayaq ki, nə vaxtsa işə salına bilər. Amma gənclər milli ruhda böyüyəndə əlbəttə ki, xarici təsirin heç bir əhəmiyyəti olmayacaq. Ona görə vətənpərvərliyi, milli dəyərləri, ənənələri qorumalıyıq və biz qoruyuruq. Əsas budur. Bugünkü Azərbaycan iqtidarı bu sahəyə çox böyük diqqət göstərir. Elə etməliyik ki, bu, davamlı olsun. Bizdən sonra hakimiyyətə gələn nəsil də bu amalla yaşasın - dövlətçilik, milli maraqlar, azərbaycançılıq, ləyaqət və güclü dövlət.

Mən qarşıdan gələn tarix münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, siz bundan sonra da, - burada əyləşənlər gəncliyin seçilmiş nümayəndələridir, - ölkəmizin inkişafına xidmət edəcəksiniz, öz töhfənizi verəcəksiniz.

***(Prezident İlham Əliyevin gənclərlə görüşdəki nitqindən)***

## Bildiriş

**Fevralın 10-da saat 10:00-da Biləsuvar rayon ərazisindəki 4 saylı qəsəbə klubunda Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı cənab M.N. Quliyevin 2015-ci ildə rayonda görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı hesabat yığıncağı olacaqdır.**

**Rəy və təklifləri bildirmək üçün hesabat məruzəsinin mətnini qəzetimizdən izləyin.**

**(Bax: səh. 2-7)**

## 20 yanvar faciəsinin qurbanları anıldı

**Cəbrayıl rayon İcra Hakimiyyətinin Tədbirlər Planına uyğun olaraq 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümü ilə bağlı bir sıra silsilə tədbirlər həyata keçirilmişdir.**

06 yanvar 2016-cı il tarixdən 20 yanvar 2016-cı il tarixədək rayon İcra Hakimiyyətinin başçısı aparatının məsul işçilərinin iştirakı ilə rayonun bütün idarə və müəssisələrində, rayon əhalisinin daha sıx məskunlaşdığı Bakı və Sumqayıt şəhərlərindəki iri yaşayış məntəqələrində, Biləsuvar rayonu ərazisində salınmış qəsəbələrdə anım tədbirləri, konfrans və mühazirələr təşkil edilmiş, rayonun fəaliyyət göstərən mədəniyyət ocaqlarında, klublarda 20 Yanvar faciəsinə həsr olunmuş xüsusi tamaşalar nümayiş etdirilmiş, bütün ümumtəhsil məktəblərində "20 Yanvar" faciəsinə həsr olunmuş xüsusi dərslər keçirilmişdir.





Yerlərdə keçirilən tədbirlərin yekunu olaraq 20 yanvar 2016-cı il tarixdə əvvəlcə Biləsuvar rayonu 4 saylı qəsəbə ərazisində salınmış "Şəhidlər" Abidə Kompleksində 1990-cı ilin 20 yanvarında sovet imperiyasının işğalçı niyyətinə qarşı mübarizədə şəhid olmuş həmyerlimiz Səxavət Quliyevin, həmçinin torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş Şəhidlərin abidələri önünə gül-çiçək dəstələri qoyularaq ruhları ehtiramla yad edilmişdir.

Tədbir rayon İcra Hakimiyyətinin iclas zalında davam etdirilmişdir.

Tədbir iştirakçıları sovet imperiyasının işğalçı niyyətinə qarşı mübarizədə şəhid olanların, həmçinin torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş Şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad etdilər.

Anım tədbirini rayon İcra Hakimiyyətinin başçısı Mahmud Quliyev giriş sözü ilə açaraq 20 Yanvar faciəsi haqqında məruzə etmişdir.

Sonra 20 Yanvar faciəsinə həsr olunmuş sənədli film nümayiş olunmuşdur.

Anım tədbirini rayon İcra Hakimiyyətinin başçısı Mahmud Quliyev yekunlaşdırmışdır.

Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri - İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, məktəb direktorları, YAP fəalları, Şəhid ailələri, Qarabağ müharibəsi veteranları iştirak etmişlər.



***"Xudafərin"***

# 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələr barədə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı M. N. Quliyevin

## Hesabatı

**Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 2015-ci ildə dünyada iqtisadi böhranın daha da dərinləşdiyini, bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunduğunu, mövcud olan münaqişələrin ötən ildə də öz həllini tapmadığını, əksinə, dünyada yeni təhlükə ocaqları yarandığını bildirərək qeyd etdi ki, Yaxın Şərqdə - İraqda, Suriyada, Liviyada davam edən münaqişələr, qanlı toqquşmalar, müharibələr regionumuzun ümumi inkişafına mənfi təsir göstərmişdir. Xarici müdaxilə nəticəsində Yaxın Şərqdə yüz minlərlə insan həlak olmuş, qaçqın, köçkün vəziyyətinə düşmüş yüz minlərlə insan Avropaya pənah gətirir və hazırda milyonlarla insan qaçqın, köçkün vəziyyətində yaşayır.**

Regionda baş verən bu hadisələr istər-istəməz Ölkəmizə də öz təsirini göstərir. Bu insanların aqibəti bizi narahat edir. Çünki biz də vaxti ilə çox böyük humanitar fəlakətlə üz-üzə qalmışdıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə düşmüşdü. O vaxt Azərbaycan bu humanitar fəlakətlə təkbaşına üzüzə qalmışdı. Adambaşına ən yüksək köçkün, qaçqın səviyyəsi Azərbaycanda olmuşdur. Ancaq buna baxmayaraq, Azərbaycan hökuməti lazımi tədbirlər görərək, öz daxili resurslarımıza əsaslanaraq bu vəziyyətdən çıxa bildi və keçən müddət ərzində köçkünlərin, qaçqınların yaşayış səviyyəsini böyük dərəcədə yaxşılaşdırmışdır.

Vətənini, əmlakını, doğmalarını itirmiş insanlar indi Avropaya sığınacaq tapmaq, canlarını qurtarmaq üçün pənah gətirirlər. Orada da onları nələr gözləyir, hamımız yaxşı görürük. Bununla bərabər, yaranmış bu vəziyyət istər-istəməz Avropada radikal qüvvələrin, İslamofobiya meyllərinin güclənməsinə gətirib çıxarır. Bu da çox təhlükəli meyildir.

Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyllərin yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin.

Eyni zamanda keçən il Türkiyə-Rusiya münasibətləri gərginləşdi. Təbiidir ki, bu, bizi çox narahat edir. Çünki hər iki ölkə bizim yaxın dostumuzdur. Əlbəttə, bizim üçün, əminəm ki, Türkiyə və Rusiya üçün də bu, arzuolunan vəziyyət deyil.

Həmçinin bu yaxınlarda İran - Səudiyyə Ərəbistanı münasibətləri həddindən artıq gərginləşdi və diplomatik əlaqələr kəsildi. İran və Səudiyyə Ərəbistanı Azərbaycan üçün yaxın və dost ölkələrdir. İran ilə bizi birgə tarix, mədəniyyət birləşdirir, bir çox layihələr birgə icra edilir. Səudiyyə Ərəbistanı isə bizim üçün çox önəmli tərəfdaşdır.

Keçən il Səudiyyə Ərəbistanına rəsmi səfərinin yüksək səviyyədə keçdiyini, Azərbaycan dövlətinə, Azərbaycan xalqına çox böyük qonaqpərvərlik göstərildiyini, müqəddəs Kəbənin qapılarının üzümüzə açıldığını xatırladan Cənab prezident qeyd etdi ki, Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində həmişə birmənalı şəkildə Azərbaycanın mövqeyini dəstəkləyir. Hətta bu münaqişəyə və işğala görə Ermənistan ilə heç bir diplomatik əlaqələr saxlamır. Eyni zamanda İran-Səudiyyə Ərəbistanı münasibətlərində yaranmış gərginlik istər-istəməz müsəlman aləmində baş verən hadisələrə də təsir göstərir.

Biz həmişə çalışmışıq ki, müsəlman aləmi daha da sıx birləşsin. Azərbaycanda keçirilən müxtəlif tədbirlər, o cümlədən gələn il keçiriləcək İslam Həmrəylik Oyunları bu məqsədi güdür ki, müsəlman aləmində əlaqələr daha da yaxın olsun, münaqişələrə son qoyulsun, əməkdaşlıq üçün daha yaxşı zəmin yaradılsın.

Keçən il neftin qiymətinin dünya bazarlarında kəskin şəkildə, 3-4 dəfə aşağı düşməsi, bizim də gəlirlərimizə mənfi təsir göstərmiş, geosiyasi və geoiqtisadi mənzərə çox narahatedici və ağır olmuşdur. Bu, reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqla hesablaşmalıyıq. Məhz bu reallığı nəzərə alaraq öz siyasətimizi bu il və bundan sonrakı illərdə davam etdirəcəyik. Lakin regionumuzda müşahidə olunan iqtisadi, siyasi və hərbi böhrana baxmayaraq Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmiş, qarşıda duran bütün vəzifələr icra edilmiş, ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır.

Cənab prezident xarici ölkələrə 20 rəsmi və işgüzar səfər etdiyini, eyni zamanda xarici ölkələrin 15 dövlət və hökumət başçılarının Azərbaycana səfərlər etdiyini, həmçinin beynəlxalq təşkilatlardakı fəaliyyətimizin çox uğurlu olduğunu xatırlatdı.

Cənab Prezident açıq bildirmişdir ki, əfsuslar olsun ki, 2015-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamışdır.

Bizim isə mövqeyimiz tam fərqlidir. Biz münaqişənin həllini istəyirik. Vasitəçilər də, Minsk qrupunun həmsədrləri də dəfələrlə bildirmişlər ki, onlar da münaqişənin həllini istəyirlər. Təbii ki, onların vəzifəsi bundan ibarətdir. Ancaq əfsuslar olsun ki, işğalçıya bu istiqamətdə heç bir ciddi təzyiq göstərilmir. Burada əlbəttə ki, işğalçı ilə işğala məruz qalan ölkə arasında fərq qoyulmalıdır. Bizim torpaqlarımız işğal altındadır və bu işğala son qoyulmalıdır. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları bir neçə dəfə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir. Biz bunu müsbət qarşılayırıq. Ancaq status-kvonun dəyişdirilməsi üçün heç bir konkret addım atılmır. Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğala son qoyulacaq.

Azərbaycan öz mövqeyini bundan sonra da müdafiə edəcək.

2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Lakin əvvəlki illərdə olan inkişaf əldə edilməmişdir. Bu da mümkün deyildi. Çünki neftin qiyməti 3-4 dəfə aşağı düşmüşdür. Manatın məzənnəsi devalvasiyaya uğramışdır. Bu da qaçılmaz idi. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi imkan vermirdi ki, manatın məzənnəsi əvvəlki səviyyədə qalsın.

Ancaq buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı artıb. Ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Qeri neft sənayesində əldə olunan 8,4 faiz artım bizim əsas göstəricimiz olmaqla, aparılan islahatların nəticəsidir və son illər ərzində qeyri-neft sektorunun inkişafı deməkdir.

Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Bunun yarısı xarici sərmayədir. Bu da çox müsbət haldır. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi öz potensialını təqdim edir. Bütün bu geosiyasi və iqtisadi amilləri nəzərə alsaq, 2015-ci ildə iqtisadi inkişafa nail olmaq özlüyündə böyük nailiyyətdir.

Keçən il bütün sosial proqramlar icra edilmişdir. Heç bir ixtisar olmamış, insanlara daha da böyük məbləğdə ünvanlı dövlət sosial yardımı verilmişdir. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artmışdır.

Sosial infrastruktur layihələri icra edilmişdir. Baxmayaraq ki, gəlirlərimiz azalıb, ancaq 60-a yaxın tibb müəssisəsi tikilib-təmir edilib, 20-dən çox məktəb təmir edilib-tikilib və hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam edir.

Regionların inkişafı 2015-ci ildə sürətlə getmişdir. Hər bir yerdə inkişaf, tərəqqi var, yeni sənaye müəssisələri açılır. Yüz mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 84 mini daimi iş yeridir. Bununla bərabər 40 min iş yeri bağlanmışdır.

Azərbaycanda çox müsbət demoqrafik vəziyyət mövcuddur. Ötən il əhalinin sayı 114 min nəfər artıb.

Keçən il ölkəmiz, regionumuz və ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli olan TANAP layihəsinin inşasına başlanmışdır. Strateji əhəmiyyət daşıyan bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı dünya bazarlarına çıxaraq. Bununla Avropa alternativ qaz mənbəyi əldə edəcək, tranzit ölkələr isə bundan böyük mənfəət götürəcəklər. Bu layihənin təşəbbüskarı Azərbaycandır və əsas iqtisadi yük ölkəmizin üzərimizə düşür. Keçən il Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulub və işlər uğurla davam etdirilir. Bu il artıq kəmərin inşası başlayır.

2015-ci ildə ölkəmizin həyatında tarixi hadisə baş vermişdir. İlk dəfə olaraq Avropa Oyunları keçirilmişdir.

İdmançılarımız komanda hesabında ikinci yeri tutdu, onlar 56 medal qazanmışlar ki, bunlardan 21-i qızıl medaldır.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin həyatında əlamətdar hadisə idi. Bütün beynəlxalq müşahidəçilər, o cümlədən Avropa Şurasının nümayəndələri, MDB ölkələrinin nümayəndələri və digər müşahidəçilər parlament seçkilərini birmənalı şəkildə yüksək qiymətləndirmişlər və bildirmişdirlər ki, seçkilər ədalətli, şəffaf şəkildə və demokratik şəraitdə keçirilmişdir.

Cənab prezident yekun nitqində qeyd etmişdir ki, 2016-cı ildə iqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı iqtisadi sahədə əsas prioritet olacaq, neftdən asılılıq azaldılacaq.

Xarici investisiyaları kənd təsərrüfatı sektoruna, sənaye sektoruna, xidmət sektoruna daha böyük həcmdə cəlb etməyə çalışılacaq, yerli sahibkarlar da Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymalıdırlar. İlk növbədə sərmayəni iqtisadiyyatın real sektoruna - istehsal sahələrinin yaradılmasına, kənd təsərrüfatına, sənayenin inkişafına və xidmət sektoruna yatırmalıdırlar. Dövlət qurumları - həm mərkəzi dövlət orqanları, həm yerlərdəki icra orqanları onlar üçün bütün şəraiti yaratmalıdırlar.

Vergi bazasını genişləndirmək üçün qeyri-formal iqtisadi fəaliyyətin leqal müstəviyə gətirilməsi, gömrük rəsmiləşdirilməsi və bütün idxal-ixrac əməliyyatlarının tam şəffaf aparılması, inhisarçılığa qarşı daha da ciddi mübarizə aparılması, Dövlət sərmayəsinin ölkəyə tez bir zamanda gəlir gətirə bilən və idxalı əvəzləyə biləcək sahələrə qoyulması nəzərdə tutulur.

Maliyyə nəzarəti daha da gücləndirilməli, xüsusilə Hesablama Palatasının işi daha da səmərəli şəkildə təşkil edilməli, Dövlət qurumlarının, dövlət şirkətlərinin xərclərinə çox ciddi nəzarət olunmalı, pozuntulara yol verən şəxslər ciddi cəzalandırılmalıdır. Eyni zamanda ictimai nəzarət mexanizmləri işə salınmalı, nağd pul dövriyyəsinin sferası azaldılmalı, nağdsız ödəmələr genişləndirilməlidir.

Beynəlxalq iqtisadi və maliyyə qurumları Azərbaycanda iqtisadi sahədə aparılan siyasəti yüksək qiymətləndirirlər. Dünyanın ən böyük və mötəbər qurumlarından biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə 40-cı yerə layiq görüb. Aparıcı reytinq agentlikləri də 2015-ci ildə bizim müsbət reytinqimizi təsdiq ediblər. Bu, böyük nailiyyətdir.

Sahibkarlara güzəştli kreditlərin verilməsi təmin edilməlidir. Keçən il güzəştli şərtlərlə 250 milyon manat məbləğində, ondan regionlara isə 5 min 240 sahibkara güzəştli kreditlər verilmişdir. Bu il bu siyasət davam etdiriləcək.

Bütün sosial proqramlar, o cümlədən məcburi köçkünlərin yaşayış problemlərinin həlli istiqamətində proqram davam etdiriləcək. Ötən il 15 min köçkün yeni evlərə köçüb. 2014-cü ildə 20 min köçkün yeni evlərə köçüb və bu siyasət davam etdiriləcək. Dövlət Neft Fondunda bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulub.

"Kənd təsərrüfatı ili"ndə, kənd təsərrüfatının həcmi keçən ilə nisbətən 6,6 faiz artmışdır. Neft - qazdan əlavə kənd təsərrüfatı məhsullarının ixracının artırılması və bunun üçün ənənəvi bazarlarımızdan əlavə yeni bazarlar axtarılması, kənd təsərrüfatı məhsulları üçün əsas bazarımız olan Rusiya bazarına daha da böyük məhsul çıxarılması, yaxın vaxtlarda isə ərzaq məhsullarımızın Qazaxıstana da ixrac edilməsi nəzərdə tutulur.

Bu il Bakıda mötəbər beynəlxalq tədbir - Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu, dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. Bakıda ənənəvi Humanitar forumlar keçirilir. Mədəniyyətlərarası Dialoq forumları bir neçə dəfə keçirilmişdir. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da həm bizə verilən böyük qiymətdir, həm də ki, bizim üçün böyük şərəfdir. Biz bundan sonra da çalışacağıq ki, ölkə daxilində bütün bu məsələlər sağlam zəmində öz həllini tapsın. Necə ki, bu, bu gün belədir. Bundan sonra da çalışacağıq regionda və dünyada dinlərarası, sivilizasiyalararası dialoq daha da dərinləşsin.

Bu Qlobal Forumun Azərbaycanda keçirilməsini, ümumiyyətlə, bu sahəyə verdiyimiz diqqəti və əldə etdiyimiz nailiyyətləri nəzərə alaraq mən bu ili Azərbaycanda "Multikulturalizm ili" elan edirəm. Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunur.

***

2015-ci ildə Respublikanın 54 şəhər və rayonunda məskunlaşmış 16966 ailə təsərrüfatında birləşən 77,8 min nəfər rayon əhalisi ilə müntəzəm olaraq əlaqə yaradılaraq gündəlik qayğıları öyrənilmiş, problemlərin həlli üçün operativ iş aparılmış, icra hakimiyyətinə müraciət edən hər bir vətəndaşın tələblərini müsbət həll etməyə salışmışıq. Ölkə rəhbərinin qayğı və diqqəti sayəsində, həmişə olduğu kimi, hesabat ilində də bütün məskunlaşma rayonlarında, eləcə də əhalimizin kompakt məskunlaşdığı xidmət ərazimiz olan Biləsuvar rayonu ərazisindəki qəsəbələrdə fasiləsiz olaraq əhalinin

# 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələr barədə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı M. N. Quliyevin

## Hesabatı

içməli su, suvarma suyu, enerji ilə təminat daim nəzarətdə saxlanılmış, lazım olan bütün kommunal və sosial xidmətlər sistemli olaraq həyata keçirilmişdir.

İlin bütün mövsümlərində qəsəbə əhalisinin istifadəsində olan pay torpaqlarından səmərəli istifadə etmələri üçün onlara hərtərəfli dəstək verilmiş, əmək qabiliyyətli vətəndaşların əraziyə qonşu olan təsərrüfat sahələrində mövsümi işlərə cəlb edilməsinə şərait yaradılmışdır. Bu məqsədlə yaz əkinlərinə başlanğıc ərəfəsində əhalimizin əsas məşğuliyyət sahəsi olan "Azərsun Holdinq"in Biləsuvar şöbəsinin rəhbərliyi ilə görüş keçirilmiş, burada aparılan mövsümi kənd təsərrüfatı sahəsində və emal müəssisəsində qəsəbə əhalisinin daha çox işləməsinə şərait yaradılması xahiş edilmişdir. "Holdinq" rəhbərliyi qəsəbədən gələn işçi qüvvəsinin, məsafənin yaxınlığı baxımından daha sərfəli olduğunu nəzərə alaraq, əmək qabiliyyətli köçkünlərin işə cəlb edilməsində özləri də maraqlı olmuşdur. Lakin bütün dünya ölkələrində davam etməkdə olan qlobal iqtisadi böhran, özlüyündə bu təsərrüfat sahəsində də işin həcmini əvvəlki illərə nisbətən azaltmış, bu səbəbdən də məcburi köçkünlərimizin məşğulluğu sahəsində müəyyən problemlər yaratmışdır.

Yaranmış müvəqqəti obyektiv çətinlik nəzərə alınaraq rayon sakinləri istifadələrində olan torpaqlardan daha səmərəli istifadə etməklə, kiçik və orta sahibkarlıq fəaliyyətlərini genişləndirməklə öz ailə dolanışıqlarını təmin etməyə çalışmışlar. Rayon icra hakimiyyəti isə öz tərəfindən, birbaşa xidmət ərazimiz olan bu qəsəbələrdə məskunlaşan sakinlərə sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarına lazımi şərait yaradılmış, onların işinə kənardan hər hansı müdaxilə edilməsinə imkan verilməmiş, belə halların qarşısı qətiyyətlə alınmışdır. Hazırda bilavasitə xidmət ərazimiz hesab olunan bu qəsəbələrdə müxtəlif növ xidmətlərlə məşğul olan obyektlər fəaliyyət göstərir və onlar tərəfindən əhalinin tələb və təklifləri yüksək səviyyədə yerinə yetirilir. Qəsəbələrdə yaradılmış əlverişli mühitdən səmərəli istifadə edən onlarla sahibkar maneəsiz olaraq biznes şəbəkələrini genişləndirir, mənfəət əldə edir və ən əsası odur ki, istehlakçılara normal xidmət göstərirlər.

Dünyada neftin qiymətinin kəskin aşağı düşməsi ilə Milli manatın məzənnəsində baş vermiş dəyişiklikdən sonra əhalimizin kompakt yaşadığı qəsəbələrdə fəaliyyət köstərən sahibkarlıq subyektlərində süni qiymət artımı, mal qıtlığının yaradılması, istehlakşıların aldadılması və digər sui-istifadə hallarının baş verməməsi üçün təcili olaraq İcra hakimiyyətində sahibkarların, ictimaiyyət nümayəndələrinin və aidiyyəti qurumların məsul vəzifəli şəxslərindən təşkil olumuş rayon Komissiyanın iclası keçirilmiş, zərururət olmadığı halda ərzaq məhsullarının qiymətlərin artımına yol verilməməsi barədə müvafiq tapşırıqlar verilmişdir. Sonrakı mərhələdə ictimaiyyət nümayəndələri ilə birgə həyata keçirilən nəzarət tədbirləri, ən əsası isə Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Hökumətinin çevik və işlək fəaliyyət mexanizmlərinə əsaslanmaqla sığortalayıcı mexanizmləri işə salması, daxili maliyyə mənbələrini bu prosesə qarşı səfərbər etməsi sayəsində Respublikada olduğu kimi, bilavasitə xidmət ərazimiz olan qəsəbələrdə də süni qiymət artımı və digər mənfi hallar baş verməmişdir.

Cənab Prezident Nazirlər Kabinetinin 6 aylığın yekununu ilə əlaqədar keçirdiyi iclasda dərmanların qiymətlərinin həddən artıq baha və müxtəlif qiymətlərə satılması, dərman bazarında keyfiyyətsiz dərman preparatlarının olması barədə ictimaiyyətə geniş açıqlama vermiş və aidiyyəti qurumlara bu məsələyə təcili baxmalarını tapşırmışdı. Məhz bu tapşırığa uyğun olaraq Tarif (qiymət) Şurası bir neçə dəfə bu məsələyə baxmış və zəruri dərman preparatlarının qiymətlərində dəyişikliklər etmişdir. 25 dekabr 2015-ci il tarixdə keçirdiyi son iclasda daha 1510 yeni dərman vasitəsinin qiymətləri, həmçinin Şuranın əvvəlki qərarları ilə təsdiq edilmiş 3540 dərman vasitəsinin manatın məzənnəsinin dəyişməsi ilə əlaqədar olaraq yeni qiymətləri müəyyənləşdirilmişdir. Beləliklə, 5050 dərman vasitəsinin topdan və pərakəndə satış qiyməti təsdiq edilmişdir ki, bunlardan 3661 dərman vasitəsinin qiymətləri hazırda qüvvədədir. Qiymətləri təsdiqlənmiş digər 1389 dərman vasitəsinin qiymətləri isə 25 fevral 2016-cı ildən qüvvəyə minəcəkdir.

Bununla da, ilin əvvəlindən etibarən manatın məzənnəsində baş verən dəyişikliklərə baxmayaraq, qiymətləri tənzimlənmiş dərman vasitələrinin satışda olan qiymətləri ilə müqayisədə 21%-nin qiyməti 2 dəfədən çox, 9%-nin qiyməti 3 dəfədən çox aşağı salınmış, ümumilikdə 60%-nin qiymətləri endirilmiş, 40%-nin qiyməti isə məzənnə dəyişikliyi ilə əlaqədar orta hesabla 30% artmışdır. Belə ki, manatın məzənnəsinin dəyişməsindən əvvəl dərman vasitələrinin qiymətləri kəskin şəkildə, 2-3 dəfədən çox, bir sıra hallarda 5 dəfədən çox, bəzi dərmanlar üzrə isə 10 dəfəyədək azaldıldığı üçün bu dərmanların qiymətləri manatın yeni məzənnəsinə uyğunlaşdırıldıqdan sonra belə, yenə də tənzimləmədən əvvəlki qiymətlərdən dəfələrlə aşağıdır.

***

Keçən hesabat ilində Bakı, Sumqayıt şəhərlərində, Abşeron və yaxın ətraf rayonlarda məskunlaşmış rayon əhalisinin problemlərinin həllini daim diqqətdə saxlamış, onların bütün müraciətlərini nəzarətə götürərək həllinə çalışmışıq. Bu məqsədlə **Bakı şəhərində yaradılmış rayon qərargahının işinə bilavasitə məsul olan birinci müavin Arif Fərzəliyev hər səhər saat 9:00-da Qaçqınların və məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə gələn Cəbrayıl rayonundan olan vətəndaşların qəbulunda iştirak etmiş və tələblərinin aidiyyəti qurumlarla birlikdə həllinə müvafiq köməkliklər göstərmişdir.** Artıq keçən ildən davam edən belə iş rejimi müsbət nəticə vermiş, son vaxtlar hər xırda problemlə bağlı Komitəyə gələnlərin sayı xeyli azalmışdır.

Hesabat ilində rayon icra hakimiyyətinə bu və ya digər ehtiyacları ilə əlaqədar müraciət edən vətəndaşlarımıza imkanlarımız daxilində maddi yardımlar da edilmiş, bununla da onlara maddi və mənəvi dəstək olmağa çalışmışıq. İl ərzində büdcə təşkilatlarında çalışan rayon sakinlərinin könüllü olaraq aylıq əmək haqqlarından ayırdıqları 1% vəsait hesabına formalaşmış "Xeyriyyə" fondundan və digər mənbələrdən ağır xəstəlikdən əziyyət çəkənlərə, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, Çernobıl iştirakçılarına, fövqəladə hadisələrdən zərər çəkmiş şəxslərə və xeyriyyə istiqamətli mədəni - kütləvi tədbirlərə ümumilikdə 148,1 min manat vəsait xərclənmişdir. Dövlət büdcəsindən isə məcburi köçkünlərə il ərzində 13 milyon 418,8 min manat yemək xərci müavinəti ödənilmişdir. İcra hakimiyyətindən verilən bütün təyinatlar üzrə maddi yardımlar, köçkünlərimizin faktiki məskunlaşdıqları yerlərdə fəaliyyət göstərən banklara, yemək xərci üçün dövlət büdcəsindən verilən müavinətlər isə vətəndaşların adlarına olan plastik kartlara köçürülmüş, bununla da vətəndaş - məmur təması tam aradan qaldırılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyev 2015-ci ildə də məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğun təmin edilməsi istiqamətində aparılan məqsədyönlü işləri davam etdirmiş, soydaşlarımız həmişə olduğu kimi dövlət qayğısı ilə əhatə olunmuşdur. Cənab Prezidentin 01 iyul 2004-cü il tarixli 298 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" və müvafiq sərəncamlarla bu Proqrama edilmiş əlavələrə uyğun olaraq son 11 il ərzində məcburi köçkünlər üçün Respublikanın müxtəlif bölgələrində ümumilikdə 94 yaşayış massivləri tikilmişdir. Həmçinin Cəbrayıl rayonundan olan köçkün ailələrindən 5300-dən çox ailə dövlət tərəfindən tikilmiş yeni mənzillərə köçürülmüşdür. Bu müddət ərzində ailənin hər bir üzvünə yemək xərci üçün verilən müavinətin məbləği 3,6 dəfə, kommunal xidmətlərə görə vəsaitin məbləği 4,5 dəfə artırılmışdır. Ümumilikdə isə məcburi köçkünlərlə bağlı təsdiq olunmuş Dövlət Proqramında və ona təsdiq edilmiş əlavələrdə rayona aid olan bütün layihələr uğurla icra olunmaqdadır.

2014-cü ilin yekunu ilə bağlı rayon icra hakimiyyətində və inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə keçirilmiş hesabat yığıncaqlarında əhali tərəfindən irəli sürülmüş 12 əsas təklifin icrası istiqamətində il ərzində müəyyən işlər görülmüşdür.

Vətəndaşların qaldırdığı təkliflərin icrasına müvafiq köməklik edilməsi məqsədilə 2015-ci ilin əvvəlində aidiyyəti üzrə Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri cənab Əli Həsənova və digər mərkəzi icra orqanlarına məktubla müraciət edilmiş və edilən müvafiq köməkliklər sahəsində həmin təkliflərin əksəriyyəti həllini tapmışdır.

Belə ki, 1-6 saylı qəsəbələrdə təmirə ciddi ehtiyac olan 70 evdən 18 ev əsaslı təmir edilmiş, 11 qəsəbədə daxili yolların çökmüş nahiyələrinin bir hissəsi "Dövlətqaçqınkom"un Mənzil İstismar Departamentinin, icra hakimiyyətinin və qəsəbə sakinlərinin maddi köməkliyi sayəsində hamarlanaraq qumlanmış, Sabirabad rayonu Güdəcühür və Şəhriyar kəndi ərazisində istismar dövrünü başa vurmuş fin evlərinin ləğvi üçün yeni qəsəbə salınmış, Biləsuvar rayonu 9 saylı qəsəbə ərazisində salınmış qəbiristanlığa gedən yolun dağılmış hissələrinə qum-çınqıl döşənmiş, 1 və 2 saylı qəsəbədə su çıxmayan 230 həyətin suvarılması üçün çəkilmiş 2,3 km, həmçinin 1 saylı qəsəbədə digər ərazidə 37 ailəni suvarma suyu ilə təmin edən 800 metr metal boru çürüdüyündən plastik boru ilə əvəz edilmişdir.

Lakin Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün salınmış 4456 mənzildən ibarət 11 qəsəbəyə qaz xətti çəkilməsi, Mərkəzi Rayon Xəstəxanasına tələb olunan ixtisaslı həkim kadrlar göndərilməsi, Abşeron rayonu Mehdiabad qəsəbəsi, "Qrand" köçkün şəhərciyində orta məktəb və uşaq bağçasının açılması, Qaradağ rayon Müşfiqabad və Abşeron rayon Mehdiabad məcburi köçkün qəsəbələrində xeyir- şər yerinin tikilməsi barədə təkliflərin icrası təmin olunmamışdır.

Bu ilin yanvar ayının 12-dən 23-nə kimi rayonun 1 şəhər, 4 qəsəbə və 92 kəndini özündə birləşdirən 23 inzibati ərazi nümayəndəliyində 2015-ci ilin yekunu və qarşıda duran vəzifələr barədə hesabat yığıncaqları keçirilmişdir. Əhalimizin əsasən kompakt şəkildə məskunlaşdığı ərazilərdə keçirilmiş bu hesabat yığıncaqlarında 1834 nəfər iştirak etmiş, 113 nəfər çıxış etmiş, ümumilikdə 42 təklif irəli sürülmüşdür. Həmin təkliflər İcra hakimiyyətində müzakirə edilərək tam təhlil olunmuş və 2016-cı ildə həllini təmin etmək üçün Tədbirlər Planı təsdiq edilmişdir.

Ciddi nəzarətimizlə məcburi köçkünlərə kommunal və digər xidmətləri həyata keçirən idarələr əhaliyə göstərilən xidmətin səviyyəsini yüksəltmiş, il ərzində bu sahələrdə hər hansı problemin yaranmasına imkan verilməmişdir.

Qəsəbələrdə kommunal xidmətin həyata keçirilməsinə məsul olan "Dövlətqaçqınkom"un MİDnin Mənzil Kommunal İstismar sahəsi xətti ilə hesabat ilində təmirə ciddi ehtiyac olan 18 evdə təmir işləri aparılmış, elektrik naqilində yaranan qısa qapanmadan yanaraq yararsız vəziyyətə düşmüş 1 saylı qəsəbədə 369 nömrəli 3 otaqlı ev əsaslı təmir edilərək sahibinin istifadəsinə verilmiş, 40-a yaxın evin dam örtüyündə cari təmir işləri aparılmışdır. Həmçinin 5 və 6 saylı qəsəbələrdə qəsəbədaxili 1200 metr suvarma kanalları lildən təmizlənmiş, 10 və 11 saylı qəsəbələrdə suvarma suyu keçən 6 metrlik 30 ədəd beton boru çıxarılıb təmizlənərək yenidən keçidlərə qoyulmuş, köndələn yol keçidlərinə isə diametri 320-lik, 200 metr metal boru atılmışdır. Maliyyə çətinlikləri olmasına baxmayaraq məsələnin vacibliyi nəzərə alınaraq "Dövlətqaçqınkom"un yaxından köməkliyi ilə 1 və 2 saylı qəsəbələrdə sıradan çıxmış 2,3 km uzunluğunda metal su boruları diametri 100-lük olan plastik borularla əvəzlənmişdir.

Biləsuvar rayonu ərazisində 2598 ailənin məskunlaşdığı 6 qəsəbə üzrə zibil tullantılarının daşınaraq basdırıldığı ərazinin Biləsuvar - Bəhrəmtəpə magistralına və qonşu İmişli rayonunun bir neçə yaşayış məntəqəsinə yaxın olması bir neçə illərdir ki, yerli əhalidə haqlı narazılıqlar yaradırdı. Bu səbəbdən də, 2015-ci ildə qəsəbələrə nisbətən daha yaxın ərazidə əlverişli yer seçilmiş və burada dərin xəndəklər qazılaraq əvvəlki tullantı yeri bura dəyişdirilmişdir.

Lakin qəsəbələrdə hələ də təmirə ciddi ehtiyacı olan 146 mənzilin qalması vətəndaşlarda haqlı narazılıqlar yaratmaqdadır. Güman edirik ki, bu il həmin mənzillərin təmiri müsbət həll ediləcəkdir. Bunun üçün **MİS-in rəisi Qoşqar Məmmədov mənzillərin təmiri ilə bağlı baş idarələri ilə əlaqə saxlamalı, vaxtaşırı olaraq öz tərəfindən təşəbbüs göstərməlidir.**

Qəsəbələrdə məskunlaşmış məcburi köçkünlərə Cəbrayıl Sukanal idarəsi tərəfindən il ərzində 2138144 m3 534536,0 manat dəyərində, qəsəbə ərazisində fəaliyyət göstərən idarə və müəssisələrə isə 35992 m3 35992 manat dəyərində içməli su xidməti göstərmişdir. Əhalini fasiləsiz olaraq keyfiyyətli su ilə təmin etmək üçün 1 ədəd artezian quyusu əsaslı təmir edilmiş, hər birinin tutumu 2000 m3 olan 4, tutumu 200 m3 olan 1, tutumu 100 m3 olan 5 ədəd su anbarı yuyularaq dezinfeksiya edilmiş, nasosxanalarda su vuran mühərriklər vaxtaşırı təmir edilərək saz vəziyyətdə saxlanmış və nəticədə içməli su ilə təminatda heç bir problem və fasilə yaranmamışdır.

Lakin 1 saylı qəsəbə ərazisindən 2007-ci ildə istifadəyə verilmiş 1856 evdən ibarət 5 qəsəbəyə içməli su nəql edən 426 mm-lik uzunluğu 15120 p/m və 219 mm-lik uzunluğu 11765 p/m magistral su xəttinin əksər hissəsinin çürüyərək yararsız vəziyyətə düşməsi, bu qəsbələrin içməli su ilə tıminatında müəyyən çətinliklər yaradırdı. "Azərsu" ASC yaranan problemi həll etmək üçün bu il diametri 219 mm olan 6250 p/m plastik boru göndərmiş və yararsız vəziyyətdə olan vacib hissələr dəyişdirilmişdir. Qalan hissələrin isə 2016 -cı ildə dəyişdirilməsi nəzərdə tutulur. **İdarənin rəhbəri Rafiq Xudaverdiyev bu il istilər düşənə kimi nasaz vəziyyətdə olan mühərriklərin təmiri və yararsız**

"Xudafərin harayından qalan mən!.." XUDAFƏRİN

# 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələr barədə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı M. N. Quliyevin

## Hesabatı

**vəziyyətdə olan boruların dəyişdirilməsi üçün baş idarəsi qarşısında indidən məsələ qaldırmalı və işin müsbət həllinə şalışmalıdır.**

Qəsəbələri birləşdirən 24,7 km asfalt örtüklü yolun istifadəyə yararlı vəziyyətdə saxlanması üçün 54 saylı Cəbrayıl yol istismarı idarəsi imkanları daxilində cari təmir işləri aparmış, vaxtaşırı olaraq yaranan çala-çuxurlar bitumla doldurulmuşdur. 2015 və 2016-cı illərin payız qış mövsümünə hazırlıqla əlaqədar ehtiyat tədbirləri görülmüş, qar və şaxtalı havalarda yola səpmək üçün 100 kub metr qum tədarük edilmiş, mövcud olan texnikalar saz vəziyyətə gətirilmişdir.

Lakin idarəyə lazımı səviyyədə maliyyə vəsaiti ayrılmadığından artıq xeyli müddətdir ki, yolda əsaslı təmir işləri aparılmır, bu səbəbdən də hazırda yolun bəzi hissələrində çökmə və çuxurlar əmələ gəlmişdir. **Yeni yaranmaqda olan xırda çala-çuxurların gələcəkdə daha da genişlənməsinin qarşısını almaq üçün İdarənin rəisi Tofiq Səfərov indidən tədbirlər görməlidir.**

Qəsəbələrdə məskunlaşmış məcburi köçkünlərimiz ötən hesabat ilində fasiləsiz olaraq elektrik enerjisi ilə təmin edilmiş, enerji ilə bağlı heç bir problem olmamışdır. Lakin qəsəbə əhalisinin əksəriyyəti enerjidən heç də qənaətlə istifadə etməmiş, ailə üzvlərinin hər biri üçün nəzərdə tutulan limitdən artıq enerji məsrəfinə yol vermişlər. İmişli Regional Elektrik Şəbəkənin və bilavasitə qəsəbələrə xidmət göstərən Aranlı (Cəbrayıl) sahəsinin rəhbərliyi qəsəbələrə fasiləsisiz enerji verilişini dayandırmaq barədə düşünməkdənsə, enerji normasından artıq məsrəfə yol verən abonentlərdən enerji pulunun alınması haqda fikirləşməlidirlər. Əgər abonent limitdən artıq məsrəf etdiyi enerjinin dəyərini hissə-hissə belə ödəməyə razılaşmadıqda onda bu halda yalnız həmin evə verilən enerji xətti açıla bilər. Bunun üçün vətəndaşları əvvəlcədən xəbərdar etmək üçün **qəsəbələr üzrə məsul olan nümayəndələr, sahə rəisləri və Elektrik şəbəkənin bilavasitə bu işə məsuliyyət daşıyan aidiyyəti əməkdaşları birgə maarifləndirmə işləri aparmalıdırlar.**

***

Cənab Prezident ilin yekunu ilə bağlı Nazirlər Kabinetinin iclasında şəhər və rayon İcra hakimiyyətləri qarşısında əsas vəzifə kimi yerli maliyyə ehtiyatlarını işə salmaqla illik xərclərini daxili imkanlar hesabına maliyyələşdirmək məsələsini qoydu. Bu məqsədlə maliyyə nəzarətinin gücləndirilməsi, vergi bazasının genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sahibkarlara özəl banklar tərəfindən güzəştli kreditlərin verilməsi kimi tapşırıqlar verdi.

Rayon ərazisinin tamamilə işğal altında olması sözsüz ki, bizə bu imkanlardan tam gücümüzlə istifadə etməyə imkan vermir. Lakin bununla belə Ölkə başçısı cənab İlham Əliyevin məcburi köçkün soydaşlarımızın mənzilməişət şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində son 12 ildə həyata keçirdiyi məqsədyönlü tədbirlər, onlara zəhmətləri ilə ailələrini dolandırmaq, özləri üçün güzəran qurmaq imkanı yaratmışdır. Məhz Ümummilli Liderimiz Heydər Əliyevin məlum 13 may 2002-ci il tarixli 700 nömrəli Fərmanı ilə neftdən gələn ilk gəlirlər hesabına Biləsuvar rayonu ərazisində olan 5 çadır düşərgəsində məskunlaşmış Cəbrayıl, Füzuli və digər rayonlardan olan məcburi köçkün ailələri üçün hər cür infrastrukturla təchiz edilmiş qəsəbələr salmaqla köçkünlərimizin həyatında müsbətə doğru əsaslı dönüş yaratdı, onlarda dövlətə, dövlətçiliyə böyük inam yaratdı. və öz doğma torpaqlarına qayıdacaqlarına böyük inam və nikbin əhval-ruhiyyə yaratdı.

Belə ki, 2003-cü ildə bu qəsəbələrə köçürülən 2560 məcburi köçkün ailəsi burada həm hər cür məişət şəraiti olan evlərə, məşğulluq üçün həyətyanı və pay torpaqlarına sahib oldular, eyni zamanda sərbəst olaraq kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladılar. Bununla da demək olar ki, 2003-cü ildən başlayaraq bilavasitə xidmət ərazimiz olan bu qəsəbələr hesabına 11 illik fasilədən sonra yenidən Cəbrayıl iqtisadiyyatı formalaşmağa başladı.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməyə başlayan hörmətli Prezidentimiz cənab İlham Əliyevin 01 iyul 2004-cü il tarixli, 298 nömrəli Sərəncamla təsdiq etdiyi "Qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"ı əsasında 2007-ci ildə bu ərazidə 1858 evdən ibarət əlavə 5 yeni qəsəbə salındı və bu qəsəbələrdə 20 minə yaxın Cəbrayıllı məcburi köçkün məskunlaşdırıldı.

Beləliklə inşa edilən onlarla belə qəsəbələrdə məcburi köçkünlərimiz hazırda şəxsi təsərrüfatla və biznes fəaliyyəti ilə məşğuldurlar.

2015-ci ildə rayon əhalisi ötən hesabat ilində rayon üzrə 29 milyon 492,9 min manatlıq və ya16,7 faiz çox ümumi daxili məhsul istehsal edilmiş, keçən ildəkindən 17,3 faiz çox olmaqla 13 milyon 904,4 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir. 552,8 min manatlıq sənaye, 14 milyon 916,3 min manatlıq tikinti işləri aparılmış, 17,1 min manatlıq nəqliyyat, 102,3 min manatlıq informasiya və rabitə xidmətləri göstərilmişdir.

Hesabat ili ərzində rayon üzrə 537 nikah qeydə alınmış, 112 boşanma, doğulan 58 artaraq 1391, ölən 6 artaraq 412, rayonun qeydiyyatına gələn 348 nəfər, qeydiyyatdan çıxanlar 85 nəfər olmuşdur. Ümumilikdə 979 nəfər təbii artım, 263 nəfər isə miqrasiya artımı olmaqla əhalinin sayı ilin sonuna 77840 nəfər olmuşdur. Bundan əvvəlki ilə nisbətən rayon əhalisinin sayı 1242 nəfər və ya 1,6 faiz artmışdır.

***

2015-ci ildə rayon büdcəsinin gəlir və xərclərinin icrası mədaxil üzrə 13 milyon 219 min. manat proqnoza qarşı 12 milyon 428 min manat və ya 94,0 faiz, məxaric üzrə 13 milyon 236 min manat proqnoza qarşı 12 milyon 281 min manat və ya 92,8 faiz yerinə yetirilmişdir. Mədaxilin 10 milyon 960 min manatı Maliyə Nazirliyindən verilən dotasiya, 13238 manatı digər transferlər, 1 milyon 455 min manatı isə yerli gəlirlərdən daxil olmuşdur. İl ərzində yerli gəlirlər 1 milyon 428 min. manat proqnoza qarşı 1 milyon 455 min manat və ya 101.9 faiz yerinə yetirilmişdir.

Rayonda sahibkarlığın inkişafına şərait yaradılmış, qəsəbələrdə bu istiqamətlə məşğul olmaq istəyi ilə müraciət etmiş vətəndaşlara maneəsiz olaraq torpaq sahələri ayrılmış, öz bizneslərini qurmaq üçün onlara güzəştli kreditlərin verilməsi təmin edilmişdir.

Biləsuvar rayonu ərazisindəki qəsəbələrdə məskunlaşmış Cəbrayıl rayonundan olan köçkün ailələrinə kənd təsərrüfatı və digər sahələr üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 4 nömrəli qəsəbə klubunda 5 dəfə kredit yarmarkası keçirilmişdir. SKMF vasitəsi ilə Cəbrayıl rayonundan olan 294 məcburi köçkünə 2,0 mln manat, o cümlədən 2015-ci ildə 43 məcburi köçkünə 392,0 min manat dövlətin güzəştli kreditləri verilmişdir. Bu kreditlər hesabına ümumilikdə 438, o cümlədən 2015-ci ildə 49 yeni iş yerinin açılması imkanı yaranmışdır.

***

01 yanvar 2016-cı il tarixinə kimi Cəbrayıl Vergilər Şöbəsində 1266 vergi ödəyici qeydiyyatdan keçmiş, onlardan da hazırda 975-i faktiki fəaliyyət göstərir. Birbaşa xidmət ərazimiz olan Biləsuvar rayonu ərazisindəki qəsəbələrdə isə 149 sahibkarlıq subyekti fəaliyyətdədir. Demək olar ki, burada məskunlaşmış əhali gündəlik ərzaq, qeyri-ərzaq mallarına olan tələbatını məskunlaşdıqları bu qəsəbələrdə ödəyə bilirlər.

**Rayon Vergilər şöbəsinin rəisi Əfrayıl Əhmədov** və şöbənin əməkdaşları vergi borclarının ödənməsinə ciddi nəzarət etməli, büdcəyə daxil olmaların artırılması üçün yerli resursları bir daha nəzərdən keçirməli, xidmət ərazimiz olan qəsəbələrdə sahibkarlıq fəaliyyəti göstərən hər bir fiziki və hüquqi şəxsdən büdcəyə ödəməli olduqları vergilərin tam həcmdə yığılmasına nail olmalıdırlar. Vergi daxilolmalarına nəzarətin səmərəliliyini artırmaq üçün birinci növbədə qəsəbələrdə vergilər şöbəsində qeydiyyata durmayan sahibkarlıq subyektlərinin qeydə alınması, topdan və pərakəndə ticarətlə məşğul olan obyektlərin hamısında nəzarət kassa aparatının quraşdırılması tez bir zamanda təmin edilməlidir.

Sahibkarlar qarşısında vergi ödəməkdən başqa qeyri tələb qoyulması, həmçinin onların işinə kənar müdaxilələr edilməsi yolverilməzdir. Vergilər şöbəsi ilə yanaşı, hər bir Dövlət orqanı və məsul vəzifəli şəxslər bilməlidirlər ki, sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli, 790 nömrəli Fərmanı vardır və sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə təsdiq edilmişdir. Həmçinin bunlarla yanaşı cənab Prezident sahibkarlıq subyektlərində yoxlamaların 01 noyabrdan 2015-ci il tarixindən etibarən 2 il müddətinə dayandırılması barədə 20 oktyabr 2015-ci il tarixli Qanun qəbul edilmiş, Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında 19 oktyabr 2015-ci il tarixli Fərman imzalayıb.

**Rayon Maliyyə şöbəsinin rəisi Famil Balayev büdcədən maliyyələşən təşkilatlarda maliyyə vəsaitinin təyinatı üzrə xərclənməsinə ciddi nəzarət etməli, burada tam şəffaflığın təmin edilməsi üçün ciddi iş aparmalıdır.**

***

Ötən hesabat ilində rayonun xidmət ərazisi olan qəsəbələrdə müəyyən abadlıq-quruculuq işləri aparılmış və yaşıllıq məqsədilə ağac əkini davam etdirilmişdir. Qəsəbələri birləşdirən yolun kənarında, Heydər Əliyev adına Parkda və qəsəbədaxili boş ərazilərdə bu ilin yazında 3875 ədəd, payızda isə 1350 ədəd ağac əkilmiş və mövsümdə ağaclara aqrotexniki qulluq işləri göstərilmiş, Heydər Əliyev adına parkın daxilində gəzinti səkilərinə cəmi 1450 m2 tamet üzlük döşənmişdir.

***

Rayonda abonentlərə yeganə bank xidməti göstərən Kapital Bankın Cəbrayıl rayon filialı hesabat dövründə səmərəli fəaliyyət göstərmiş, əhaliyə pensiya və müavinətlərin, aylıq əmək haqqı və digər ödənişlərin plastik kartlar vasitəsi ilə vaxtında ödənilməsini təmin etmişdir.

***

Qəsəbələrdə məskunlaşmış rayon əhalisinə burada fəaliyyət göstərən "Azərpoçt" MMC-nin Cəbrayıl filialı və Aztelekom istehsalat birliyinin Cəbrayıl Telekommunikasiya idarəsi tərəfindən poçt və rabitə xidməti göstərilmişdir. Bu məqsədlə qəsəbələrdə 1 məntəqə, 3 poçt agentliyi, 3 saylı qəsəbədə 688, 7 saylı qəsəbədə 256, 10 saylı qəsəbədə isə 272 tutumlu elektron ATS və 400 montaj tutumu olan genişzolaqlı internet şəbəkə mövcuddur. Hazırda 433 internet istifadəçisi, 1176 nəfər isə telefon abunəçisi vardır. Əlavə telefon çəkilişi üçün 37 boş yer qalır. Keçən ilə nisbətən genişzolaqlı internet istifadəçilərinin sayı əvvəlki ilə nisbətən xeyli artmışdır. **Rayon Rabitə qovşağının rəisi Tehran Yusifov və rayon telekomnikasiya idarəsinin rəisi Afər Allahverdiyev öz işlərini günün tələbinə uyğun qurmalı, qəsəbələrdə əhaliyə göstərilən poçt və rabitə xidmətinin səviyyəsini yüksəltməyə çalışmalıdırlar.**

***

Cənab Prezident bu il yanvar ayının 26-da "Azərbaycan Respublikası regionların 2014-2018-ci illərdə sosial-iqtsadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş iclasında əmək qabiliyyətli əhalidən hazırda işləməyən hissəsinin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğunun təmin edilməsi istiqamətində mühüm tapşırıqlar vermişdir. Hazırda mərkəzi və yerli icra orqanları tərəfindən əhalinin məşğulluğu üçün yeni iş yerlərinin açılması məqsədi ilə haqqı ödənilən ictimai işlərin təşkili üçün layihələr hazırlanmaqdadır. Tapşırığa uyğun olaraq rayon İcra hakimiyyətində aidiyyəti rayon təşkilatlarının iştirakı ilə geniş müşavirə keçirilmiş, heç yerdə işləməyən vətəndaşların müəyyənləşməsi, onların birbaşa xidmət ərazimizdə həyata keçirilməsi mümkün olan haqqı ödənilən işlərə cəlb edilməsi variantları geniş təhlil edilmişdir.

Araşdırmadan aydın olmuşdur ki, rayon üzrə mövcud olan 77,8 min əhalinin 37,7 min nəfəri iqtisadi fəal əhali hesab olunur ki, ondan da hazırda 4242 nəfəri işsizdir. İşsiz əhalinin 1200-ə yaxını birbaşa xidmət ərazimiz olan 4456 evdən ibarət 11 qəsəbədə, qalanı isə əhalimizin müvəqqəti məskunlaşdığı Bakı, Sumqayıt, Abşeron və digər yaşayış yerlərindədir.

Bu qəsəbələrdə olan əhalinin işə cəlb edilməsi üçün hazırda təmirə ehtiyacı olan 146 evin cari təmiri, qəsəbələri birləşdirən magistral yolun kənarlarında yaşıllıq məqsədi ilə 11 qəsəbədə həyətyanı sahələrin suvarılması üçün mövcud olan 155 min metr uzunluğunda kanalın əllə lildən təmizlənməsi və s. kimi layihələrin icrası təklif olunmuşdur. Hesab edirik ki, təklif etdiyimiz layihələr yaxın günlərdə nəzərdən keçiriləcək, məqbul hesab edilən layihələr icra üçün rayon Məşğulluq Mərkəzinə təqdim olunacaqdır.

Məlumat üçün onu da bildiririk ki, 2004-cü ildən bəri ümumulikdə 1876 nəfər, o cümlədən 2015-ci ildə cəmi 164 nəfər işlə təmin olunmuşdur. Qəsəbələrə yaxın ərazidə fəaliyyət göstərən "Azərsun" Holdinqin Biləsuvar şöbəsində və digər ətraf ərazilərdə 1200 nəfərdən çox sakinimiz mövsümi kənd təsərrüfatı işlərinə cəlb olunmuşdur.

Həmçinin Rayon Məşğulluq Mərkəzində 929 nəfər işaxtaran kimi rəsmi qeydiyyata alınmış, onlardan 2015-ci ildə 83 nəfər, indiyə qədər isə 224 nəfər işsizlik statusu almışdır. Hazırda isə 13-ü təkrar olmaqla 96 nəfər işsizlik müavinəti alır. Ötən ildə 39 nəfər Mərkəz xətti ilə daimi işə, 5 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

**Məşğulluq Mərkəzinin direktoru Sərdar Nağıyev işçiləri ilə birlikdə yaxın vaxtlarda təqdim olunacaq layihənin şəffaf olaraq həyata keçirilməsini təmin etməlidirlər. İcra hakimiyyəti başçısının sahə üzrə müavini Tapdıq Nəsirov bu işə ciddi yanaşmalı, layihəyəyə cəlb olunacaq vətəndaşların düzgün seçilməsində, ayrılan maliyyə vəsaitinin xərclənməsində tam şəffaflığı təmin etməlidir.**

***

Əhalinin sosial təminatı ilə məşğul olan rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi və Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi qeydiyyatlarında olan pensiya və müavinətçilərə xidmətini da-

# 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələr barədə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı M. N. Quliyevin

## Hesabatı

vam etdirmiş, onlara çatası bütün ödənişlər hesabat ilində aylar üzrə vaxtında ödənilmişdir. Hesabat ilinin yekun məlumatına görə DSMF Cəbrayıl rayon şöbəsi tərəfindən 3162 nəfərə yaşa, 5100 nəfərə əlilliyə və 315 nəfərə isə ailə başçısını itirməyə görə pensiya verilir. Ümumilikdə cari ildə rayon şöbəsi üzrə qeydiyyatda olan 8577 nəfər pensiya və müavinətçiyə cəmi 16 milyon 470 min manat vəsait verilmişdir. Lakin bununla yanaşı Şöbənin əsas göstəricisi hesab olunan məcburi sosial sığorta haqqı 3 milyon 185,5 min manat proqnoza qarşı 2 milyon 648,6 min manat və ya 83.1 faiz və ya 16,9 faiz kəsrlə yerinə yetirilmişdir.

ƏSMM rayon şöbəsi xidmətində olan ümumilikdə 4068 nəfərə o, cümlədən əlilliyə görə 2473 nəfərə, ailə başçısını itirməyə görə 95 nəfərə, 362 nəfər müharibə veteranına, 313 nəfər təqaüdçüyə, 221 nəfər uşaq müavinətləri alanlara və 604 nəfər birdəfəlik müavinət alanlara 2015-ci ildə 2 milyon 747,7 min manat müavinət, 185 ailədə birləşmiş 787 nəfərə 318,0 min manat Ünvanlı Sosial Yardım, ümumilikdə isə 3 milyon 065,7 min manat vəsait vermişdir. Hər ailəyə ayda ödənilən ünvanlı sosial yardım orta hesabla 143 manat təşkil etmişdir. Hər iki təşkilat üzrə il ərzində vətəndaşlara cəmi 19 milyon 535,7 min manat vəsait ödənilmişdr.

Lakin onu da qeyd etməliyik ki, keçən ildə pensiya təyinatı və xüsusən də ünvanlı sosial yardım təyinatından narazılıq halları müşahidə olunmuş, xeyli sayda vətəndaş bununla bağlı rayon icra hakimiyyətinə və Mərkəzi icra orqanlarına müracətlər etmişdir. Bu sahədə narazılıqların yaranmasında müəyyən məhdudiyyətlər əsas rol oynamışdır. Belə ki, vətəndaşların kredit alması, məcburi köçkün gənclərdən əmək kitabçası tələb olunması kimi tələblər, bəzən köçkünlüklə əlaqədar iş olmadığı üçün heç bir yerdə işləməyən, ailəsinə gəlir daxil olmayan və həqiqətən də maddiyyata ciddi ehtiyacı olan gənc ailələrimizi bu imtiyazdan bəhrələnməyə imkan vermir.

Cənab Prezident 26 yanvar 2015-ci il tarixdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası ilə bağlı Heydər Əliyev Mərkəzində keçirilən müşavirədə bəyan etmişdir ki, iş tapa bilməyən aztəminatlı vətəndaşları haqqı ödənilən ictimai işlərə cəlb etməklə onlara 6 ay - 1 il müddətinə müavinət verilməlidir. Bununla bağlı aidiyyəti mərkəzi və yerli icra orqanları qarşısında çox ciddi tələblər qoydu. Hazırda bu istiqamətdə fərdi olaraq iş aparılır və yaxın günlərdə bu təbəqədən olan insanlar dövlətin ayırdığı vəsaitdən ala biləcəklər.

**Sosial təminatla məşğul olan ƏSMM, DSMF rayon şöbələrinin və Məşğulluq Mərkəzinin rəhbərləri Müşfiq Əliyev, Akif Məmişov və Sərdar Nağıyev aztəminatlı vətəndaşların sosial müdafiəsi istiqamətində Azərbaycan Hökuməti tərəfindən müəyyənləşdirilmiş tədbirlərin rayonda həyata keçirilməsi üçün birgə iş aparmalıdırlar.**

***

Yola saldığımız il neftin qiymətində kəskin azalmalar nəticəsində ölkə büdcəsində yaranmış gərginliklə yadda qaldı. Yaranmış büdcə kəsirlərini doldurmaq məqsədi ilə bir sıra sahələrdə qənaət rejiminin tətbiqinin qaçılmaz olduğu bir vaxtda ölkə Prezidenti aqrar sektorun inkişafı üçün əlavə dövlət dəstəyinin verilməsi məqsədi ilə ötən il ardıcıl olaraq daha bir neçə sərəncamlarla xeyli dövlət vəsaiti ayırdı. Cənab Prezidentin diqqəti və maliyyə dəstəyi nəticəsində ötən il kənd təsərrüfatı məhsullarının istehsalçılarına becərmə işlərində istifadə etdikləri yanacaq və motor yağlarına görə verilən subsidiyaların məbləği 25% artırıldı, mineral gübrələrin satışına görə qiymətlərə tətbiq edilən güzəşti 50%-dən 70%-ə qaldırıldı, "Aqrolizinq" ASC tərəfindən lizinqə verilən kənd təsərrüfatı texnikalarının ilkin dəyərinə 40% güzəşt tətbiq edildi, süni mayalama nəticəsində alınmış buzovlara görə fermerlərə birdəfəlik olaraq 100 manat yardım verilməsinin hüquqi bazası yaradıldı. Qeyd olunan bu və ya başqa güzəştlər hesabına ötən il Respublikada kənd təsərrüfatında 6.6% artıma nail olunmuşdur. 2015-ci il Respublikada həm də Kənd təsərrüfatı ili çərçivəsində həyata keçirilən bir sıra institusional islahatlarla də xarakterik oldu. Belə ki, 2015-ci il Kənd təsərrüfatı sahəsində əsaslı struktur dəyişiklikləri edilmiş, elektron kənd təsərrüfatı sisteminə keçilmiş, yeni bazar infrastrukturu yaradılmış, aqrar sektorda muasir biznes texnologiyasına əsaslanan aqroparkların yaradılması sahəsində praktik addımlar atılmış, ölkənin bir neçə bölgəsində aqroparkların və müxtəlif təyinatlı təsərrüfatların yaradılmasına başlanılmışdır.

Ölkə Prezidentinin birbaşa göstərişi ilə məhsul istehsalçılarına əkin, becərmə və məhsul yığımı dövründə qarşılaşdıqları problemlərin həlli məqsədi ilə "Aqrolizinq" ACS tərəfindən Texnikaların lizinq yolu ilə satışı zamanı texnikaların ilkin dəyərinə 40% güzəştin tətbiq edilməsi bu sahəyə marağı əsaslı şəkildə artırmış, məhsul istehsalı prosesində texniki problemlər aradan qaldırılmışdır. Diqqətinizə çatdırım ki, Ölkə Prezidentinin yaratdığı belə münbit şərait nəticəsində 52 rayon sakini həmin güzəştlərlə müxtəlif texnikaları almağa nail olmuşlar. Həyata keçirilmiş uğurlu tədbirlərin nəticəsidir ki, ötən il taxıl yığımı 18 iş günündə başa çatdırılmış, digər kənd təsərrüfatı bitkilərinin əkin sahələrində aqrotexniki tədbirlər uğurla davam etdirilmişdir. Cari ilin məhsulu üçün payızlıq əkinlər də optimal müddətlərdə və keyfiyyətlə yerinə yetirilmişdir.

Kənd təsərrüfatı sahəsinin həyata keçirilən tədbirlərin son nəticəsi ölkədə milli ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının yaradılmasıdır. Bu baxımdan 2015-ci ildə icrası başa çatmış 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı barədə Dövlət Proqramının müstəsna əhəmiyyəti olmuşdur. Dövlət Proqramının icrası dövründə ölkədə əhalinin ərzaq təminatı üçün dayanıqlı və sabit baza yaradılmış, daxili istehsal hesabına əhalinin əsas ərzaq məhsulları ilə təminatı 2 dəfədən çox artmış, ölkənin ixrac potensialı xeyli güclənmişdir. Dünya Bankının məlumatına görə, Ölkədə icra edilmiş belə Dövlət Proqramları hesabına Respublikamızda kənd təsərrüfatı son 10 ildə 48,9% artmışdır ki, bu da dünya üzrə həmin dövrdə qeydə alınmış artımdan 17,1% çoxdur.

Qeyd olunan Dövlət Proqramı çərçivəsində rayonumuzda da xeyli müsbət nəticələrə nail olunmuşdur. Dövlət Proqramı çərçivəsində Sahibkarlığa Kömək Milli Fondu vasitəsi ilə 294 sahibkarlıq subyektinə 2 milyon manata yaxın, Bank olmayan "Qafqaz Kredir" MMC vasitəsi ilə isə 1511 məhsul istehsalçısına 1,442 milyon manat mikrokreditlər verilmişdir. Alınmış kreditlər hesabına xeyli məcburi köçkünümüz işlə təmin olunmuş, fərdi təsərrüfat yaratmış, eləcə də mövcud təsərrüfatlarını genişləndirmək imkanları qazanmışdır.

Proqramın icra edildiyi 7 il ərzində rayonda 49,1 min ton taxıl, 3,3 min ton tərəvəz, 2,3 min ton kartof, 359 ton bostan məhsulları, 405 ton qarğıdalı, 3,5 min ton şəkər çuğunduru, 43,1 min ton süd, 5,7 min ton ət, 752 ton yun, 26,1 milyon ədəd yumurta istehsal edilmişdir.

Son 7 illik nəticələrin fonunda konkret olaraq kənd təsərrüfatı sahəsində ötən il görülmüş işlər barədə məlumatı diqqətinizə çatdırıram. 2015-ci ildə rayon üzrə 4460 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına, eləcə də buğda istehsalçılarına ümumilikdə 227 min manat subsidiya verilmiş, güzəştli qiymətə 300 tondan çox mineral gübrə satışı təmin edilmişdir. Rayon Suvarma Sistemləri İdarəsi tərəfindən əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədi ilə mövcud su nasoslarının müntəzəm işi təmin edilmiş, suvarma rejiminə uyğun olaraq təsərrüfat ili ərzində 2620 hektar taxıl əkinlərində 3 dəfə, 850 hektardan çox yonca əkinlərində 6 dəfə, həyətyanı sahələrdə 10 dəfədən çox vegetasiya suvarmaları aparılmışdır. Həyata keçirilmiş tədbirlər nəticəsində ötən ildə rayon üzrə 8150 ton taxıl, 712 ton tərəvəz, 460 ton kartof, 78 ton bostan məhsulları, 75 ton qarğıdalı, 415 ton şəkər çuğunduru istehsal edilmişdir.

Aqrotexniki tədbirlərin daha da yaxşılaşdırılması hesabına bütün növ məhsullar üzrə məhsuldarlıq göstəricilərində ötən illə müqayisədə artıma nail olunmuşdur. Bir faktı qeyd etmək lazımdır ki, yüksək məhsuldar buğda sortlarının əkilməsi hesabına bu il taxılın məhsuldarlığı rayonun tarixində ilk dəfə olaraq 31,2 sentnerə çatdırılmışdır. Əhalimizin istehlak zənbilində əsas xüsusi çəkiyə malik olan taxılın məhsuldarlığının daha da artırılması məqsədi ilə rayonda mövcud 2 toxumçuluq təsərrüfatında yüksək məhsuldar buğda sortları yetişdirilərək çoxaldılmış və istehsalçılara satışı təmin edilmişdir.

Rayonda fitosanitar vəziyyətdə müntəzəm nəzarətdə saxlanılmış, istehsalçılara bu barədə maarifləndirici məlumatlar verilmiş, əkin sahələrində ötən ildən başlayaraq alaq otlarına, xəstəlik və zərərvericilərə qarşı sistemli mübarizə tədbirlərinə başlanılmış, bu sahədə yüksək nəticələr alınmışdır. Hazırda rayonda mövcud əkinlərin zəruri ehtiyac olan hissəsində zərərvericilərə və alaq otlarına qarşı mübarizə məqsədi ilə tədbirlər görülür.

Hesabat ilində əhalinin heyvandarlıq məhsullarına tələbatının idxaldan asılılığının mümkün qədər azaldılması istiqamətində tədbirlər davam etdirilmişdir. Ötən ilin sonuna rayon üzrə əhalinin şəxsi təsərrüfatlarında 10232 baş iribuynuzlu, 113018 baş xırdabuynuzlu heyvan, 12 min başdan çox müxtəlif ev quşları vardır. Ötən il heyvandarlıq məhsulları istehsalında da, artıma nail olunmuş, ümumilikdə diri çəkidə 1750 ton, kəsilmiş çəkidə 927 ton ət, 6740 ton süd, 140,6 ton yun, 4,2 milyon ədəd yumurta istehsal edilmişdir. Heyvandarlığın intensiv inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, bəzi müsbət nəticələr alınmışdır. Lakin qeyd olunmalıdır ki, rayon üzrə məhsul istehsalında ilbəil artım dinamikası olsa da hələ də heyvandarlıqda məhsuldarlıq göstəriciləri Respublika üzrə orta göstəricilərlə müqayisədə azdır. Bu sahədə əsaslı tədbirlərin görülməsinə başlanılmışdır. Artıq 2013-cü ildən başlayaraq heyvandarlığın cins tərkibinin yüksək məhsuldar heyvanlar hesabına artırılması üçün son 3 ildə 2099 baş inək və düyədə süni mayalanma aparılmış, 1428 baş sağlam bala alınmışdır. Rayon üzrə inəklər arasında süni mayalamanın xüsusi çəkisi 17-20 % arasında olmuşdur. Son 3 ildə süni mayalama nəticəsində alınmış buzovlar rayon üzrə mövcud iribuynuzlu heyvan sürüsünün 11%-ni təşkil edir.

Əhalinin süd və süd məhsullarına olan tələbatının daha da yaxşılaşdırılması, onun idxaldan asılılığının maksimum dərəcədə aşağı salınması məqsədi ilə tədbirlər davam etdirilir. Nəzərə alsaq ki, ötən il rayon üzrə 6704 ton süd istehsal edilsə də, onun emalı olduqca aşağı səviyyədədir. Müşahidələr göstərir ki, iri heyvandarlıq təsərrüfatı olan sahibkarlarımız da südün emalı ilə məşğul olmaq istəmirlər. Nəticədə qəsəbələr ərazisində, eləcə də digər ərazilərdə məskunlaşmış sahibkarlar südü kənar təşkilatlara ucuz qiymətə satırlar.

Artıq bu sahədə əsaslı dəyişikliklər edilməsinə ehtiyac vardır. Belə ki, sahibkarlarda bu sahəyə marağı artırmaq məqsədi ilə hazırda qəsəbələr ərazisində Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti hesabına süd emalı müəssisəsinin tikintisi davam etdirilir.

Rayon Baytarlıq İdarəsi tərəfindən il ərzində mal-qara və quşlar arasında profilaktiki və müalicə tədbirləri ardıcıl davam etdirilmiş, ümumikdə rayonda epizotik durum müntəzəm nəzarətdə saxlanılmışdır. Əhalinin sağlam ət və digər heyvandarlıq məhsulları ilə təmin edilməsi məqsədi ilə qəsəbələr ərazisində olan ət kəsimi və satışı yerlərinə vaxtaşırı baxış keçirilmiş, onlara təlimati tövsiyələr verilmişdir. Aparılmış profilaktiki tədbirlər nəticəsində rayonda malqara arasında iti yoluxucu xəstəliklərdən kütləvi tələfat hallarına yol verilməmişdir.

Heyvandarlığın yem bazasının möhkəmləndirilməsi məqsədi ilə ötən il 850 hektardan çox sahədə yonca, 250 hektardan çox sahədə arpa, 15 hektarda qarğıdalı, 200 hektardan çox sahədə yaşıl yem məqsədi ilə təkrar qarğıdalı yetişdirilmişdir. Sahələrdən 7 min tondan çox quru ot, 693 ton arpa, 75 tondan çox qarğıdalı dəni, 4000 tondan çox yaşıl kütlə yığılmışdır.

Cari ildə bizi daha məsul vəzifələr gözləyir. Neftin dünya bazarında ucuzlaşması qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi üçün intensiv yollar axtarmağı tələb edir. Ölkə büdcəsində aqrar sektorun xüsusi çəkisinin artırılması indi prioritet vəzifə kimi qarşıya qoyulur. Aqrar sektorda bu il nailiyyətləri daha da artırmaq məqsədi ilə cari ilin məhsulu üçün əkilmiş taxıl sahələrində bütün aqrotexniki tədbirlər davam etdirilməli, əkinlərin suvarma suyu ilə təminatı suvarma rejiminə uyğun aparılmalı, yazlıq əkinlərin: o, cümlədən tərəvəz, bostan, kartof və s. əkinlər üçün hazırlıqlar başa çatdırılmalı, səpinlər optimal müddətdə aparılmalıdır. Heyvandarlığın məhsuldarlıq göstəricilərinin yüksəldilməsi məqsədi ilə cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirləri aparılması genişləndirilməli, lizinq yolu ilə cins heyvanların alınmasına diqqət artırılmalıdır. Yerli istehsalın genişləndirilməsi məqsədi ilə tikilməkdə olan süd emalı müəssisəsinin inşası başa çatdırılmalıdır.

Bu vəzifələrin icrası ölkənin milli ərzaq təhlükəsizliyinin qorunması və eləcə də əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üçün əsas prioritetlərdir. Bu hədəflərə çatmaq üçün kənd təsərrüfatının bütün sahələrində yüksək texnologiyalar tətbiq edilməli, daha intensiv və yüksək məhsuldar buğda və digər ərzaq məhsullarının toxumları hesabına məhsuldarlıq göstəriciləri artırılmalıdır. Bazarda sağlam rəqabət təmin edilməli, yerli istehsal hesabına ərzaqların qiymətlərində süni artımın qarşısı alınmalıdır. Sağlam heyvandarlıq məhsulu istehsalı üçün ciddi nəzarət təmin edilməli, istehsalçılara dəstək gücləndirilməlidir.

**Göstərilən hədəflərə nail olmaq üçün rayonun aqrar sektora daxil olan idarə və müəssisələrin rəhbərləri, Rayon Suvarma Sistemləri, Baytarlıq idarələri, Bitki mühafizə mərkəzi, Toxum və Texniki nəzarət müfəttişliklərinin rəhbərləri Tehran Məmişov, İlham Şahverdiyev, Əli Qarayev, Zakir Atakişiyev, Atakişi Atakişiyev öz işlərində məsuliyyəti daha da artırmalı, fermerlərlə müntəzəm əlaqə yaratmalı, istehsalçılara texniki, təlimatı**





# 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələr barədə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı M. N. Quliyevin

## Hesabatı

**köməkliklərini artırmalıdırlar.**

***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırığa uyğun olaraq, Respublikanın 54 şəhər və rayonunda məskunlaşmış 77468 nəfər Cəbrayıllı məcburi köçkünlərin tibbi müayinəyə cəlb olunması mütəşəkkil qaydada təşkil olunmuş, bu məqsədlə rayon İcra Hakimiyyətinin məsul işçiləri, əlaqədar xidmət təşkilatları bu işə cəlb olunmuşdur.

Rayonun əsas xidmət sahəsi olan Biləsuvar rayonu ərazisində salınmış 18599 məcburi köçkünün məskunlaşdığı 11 qəsəbədə 50 çarpayılıq sahə xəstəxanası və 4 həkim məntəqəsi lazımi avadanlıq və digər vasitələrlə tam təchiz olunmuş və vətəndaşların maneəsiz qəbulu üçün normal şərait yaradılmışdır. Həmçinin tibbi müayinə zamanı aşkar olunmuş xəstələrin bir hissəsi dispanser müşahidəsinə götürülmüş, digərləri isə 50 çarpayılıq sahə xəstəxanasında, İmişli Rayon Mərkəzi Xəstəxanasında və Bakı şəhərinin müxtəlif klinikalarına müalicəyə göndərilmişdir.

2015-ci ilin fevral ayının 2-dən may ayının 1-dək ümumilikdə rayon üzrə 68214 nəfər tibbi müayinədən keçmiş, onlardan 65552 nəfər sağlam hesab edilmiş, 2284 nəfər ambulator müalicəyə, 198 nəfər stasionar müalicəyə, 150 nəfər isə Bakı şəhərinin müxtəlif klinikalarına müalicəyə göndərilmişdir.

2015-ci ildə ambulator qəbul 88432 nəfər, evə çağırış isə 9594 nəfər olmuşdur. Çarpayı günü 124 gün olmuşdur ki, bu da ümumi çarpayı planının 74,8% təşkil edir, 476 nəfər isə Bakı şəhərinin müxtəlif klinikalarına müalicəyə göndərilmişdir.

Milli İmmunoprofilaktika Proqramının tələblərinə uyğun olaraq yoluxucu xəstəliklər üzərində epidemioloji nəzarət sisteminin təkmilləşdirilməsinə diqqət artırılmış, il ərzində epizootiq plan üzrə nəzərdə tutulan bütün tədbirlər vaxtında icra olunmuşdur.

**Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Hüseyn Əhmədov, Gigiyena və Epidemiolgiya Mərkəzinin direktoru Əli Əhmədov bu günə qədər vakant olan həkim yerlərinə ixtisaslı həkim göndərilməsi üçün Səhiyyə nazirliyi qarışısında məsələ qaldırmalıdırlar.**

***

Cəbrayıl rayon Təhsil şöbəsi üzrə 2015-2016-cı tədris ilində 44 ümumtəhsil məktəbi, o cümlədən 39 tam orta, 3 ümumi orta, 2 ibtidai və 1 Uşaq-Gənclər Şahmat məktəbi fəaliyyət göstərir. Ümumtəhsil məktəblərində 8631 şagird təhsil alır, şahmat məktəblərində isə 23 qrup üzrə 227 məktəbli şahmatın sirlərini öyrənir.

Ölkə Prezidenti cənab İlham Əliyev müasir tələblərə cavab verən məktəb binalarının, eləcə də onun maddi-texniki bazasının təhsil quruculuğunda və keyfiyyətli təhsilin əldə edilməsində əhəmiyyətli rol oynadığını nəzərə alaraq Respublikamızda yeni məktəblərin tikilməsini və təmir edilməsini daim diqqətdə saxlamışdır. Son 10 ildə 2900-dən çox məktəb tikilib-təmir edilmişdir. Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın birinci xanımı, Millət vəkili Mehriban xanım Əliyevanın da dəstəyi ilə ”Yeniləşən Azərbaycana Yeni məktəb” layihəsi çərçivəsində yüzlərlə yeni məktəb, məktəbəqədər uşaq müəssisəsi tikilmiş və ya bərpa edilmişdir.

Keçən hesabat ilində Saatlı rayonu Əlisoltanlı Fin qəsəbəsində məskunlaşmış məcburi köçkünlər üçün tikilmiş yeni qəsəbədə rayonun Tatar kənd tam orta məktəbi üçün hər cür şəraiti olan, bütün inventar və avadanlıqlarla təmin olunmuş 198 yerlik və Hacıqabul rayonu Qızılburun qəsəbəsində salınmış məcburi köçkün qəsəbəsində rayonun 7 saylı tam orta məktəbi üçün 150 yerlik məktəb binası tikilərək istifadəyə verilmişdir. Həmçinin rayonda fəaliyyət göstərən 11 uşaq bağçasında, eləcə də 15 saylı, Dəmşəlaq kənd tam orta və 22 saylı ümumi orta məktəblərində cari təmir işləri aparılmış, bütün məktəblər yeni dərs ilinə tam hazır vəziyyətə gətirilmiş, Süleymanlı və Şahvəlli kənd tam orta məktəblərdə istilik sistemi quraşdırılmışdır. 2015-2016-cı tədris ilində Qaçqınlar və Məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsi tərəfindən 922 dəst oğlan və qız paltarı, Təhsil Nazirliyi tərəfindən isə verilmiş VIII siniflər üçün 13423, IV-VI siniflər üçün 12426 ədəd müxtəlif adda dərslik pulsuz alınaraq ümumtəhsil məktəblərinə paylanmışdır. Beləliklə, bu tədris ilində 24 min 360 manat dəyərində məktəb avadanlıqları alınaraq məktəblərə verilmişdir.

Bu il rayonun ümumtəhsil məktəblərinin 11-ci sinfini bitirən 660 nəfər şagirddən 399 nəfəri ali məktəblərə sənəd vermiş, onlardan 269, əvvəlki illərin məzunlarından isə 30 nəfər olmaqla 299 nəfər respublikanın müxtəlif ali təhsil, 19 nəfəri isə orta ixtisas məktəblərinə - ümumilikdə 318 nəfər qəbul olaraq tələbə adını qazanmışdır. Olanlardan 19 nəfəri 600-dən yuxarı bal toplamışdır: Cəbrayıl rayon 15 saylı tam orta məktəbin şagirdi **Novruzova Lalə** Zəfər qızı isə 700 bal toplayaraq Prezident Yanında İdarəçilik Akademiyasının hüquqşünaslıq fakültəsinə daxil olmuşdur.

Ənənəvi olaraq bu il də rayon İcra Hakimiyyəti tərəfindən 500-dən yuxarı bal toplayan 46 məzun topladıqları bala müvafiq olaraq pul mükafatı ilə mükafatlandırılmışdır.

”Məktəblilərin Respublika fənn olimpiadalarının təşkili və keçirilməsi” qaydalarına uyğun olaraq Respublika turunda iştirak edən 4 nəfər şagirdin hər biri yüksək nəticə göstərmişlər. Belə ki, Daşkəsən kənd tam orta məktəbin VIII sinif şagirdi **Şahverdiyev Sirac Mübariz oğlu** ”Birincilərin birincisi” adını qazanaraq ”Qızıl medal”, 10 saylı tam orta məktəbin XI sinif şagirdi **Hüseynova Gülbəniz Ağahüseyn qızı** ”Gümüş medal”, Yuxarı Mərcanlı kənd tam orta məktəbin X sinif şagirdi **Şahverənova Simarə Mikayıl qızı,** 6 saylı tam orta məktəbin IX sinif şagirdi **İbrahimov Zamin İlqar oğlu** isə ”Bürünc medal”a layiq görülmüş və Azərbaycan Respublikası Təhsil Nazirliyinin ”Diplomu” ilə də təltif olunmuşdurlar.

Şagirdlərin sağlamlığının qorunması, onların fiziki hazırlığının yüksəldilməsi də daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə şagirdlər müxtəlif idman klublarına və məşqələrə cəlb edilirlər. Onlar arasında müxtəlif yarışlar keçirilir, qaliblərin Respublika və ya Beynəlxalq yarışlarda iştirak etmələri üçün şərait yaradılır. Cari tədris ilində Ə.Hüseynov adına Əmirvarlı kənd tam orta məktəbinin şagirdi **Rahim Qəhrəmanzadə** Yunan-Roma güləşi üzrə Yeniyetmələrin VII respublika Oyunlarında, Tatar kənd tam orta məktəbinin X sinif şagirdi **Famil Atakişiyev** Taekvando idman növü üzrə Respublika çempionatında II yerləri tutmuşlar.

Sevindirici haldır ki, təhsilin inkişafındakı xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsində yüksək nailiyyətlər əldə etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 5 oktyabr-Beynəlxalq Müəllimlər Günü münasibəti ilə Qovşudlu kənd tam orta məktəbinin riyaziyyat müəllimi **Xankişiyev Əbülfət Cəlil oğlu ”Tərəqqi” medalı,** Mehdili kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi **Hidayət Hümbət oğlu Səfərli ”Qabaqcıl Təhsil İşçisi”** döş nişanı ilə təltif olunmuşlar.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin - Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisinin işğal edilməsi, Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe nəticəsində problemin hələ də öz həllini tapmaması ölkəmiz üçün çox zəruri olan gənclərdə hərbi vətənpərvərlik hissinin gücləndirilməsi, onlarda düşmənə barışmaz münasibətin formalaşdırılması, zabit kadrların hazırlanması məsələsi rayon icra hakimiyyətinin, eləcə də təhsil işçilərinin daim diqqət mərkəzində saxlanılır. Elə bunun nəticəsidir ki, 2015-2016-cı tədris ilində rayonun ümumtəhsil məktəblərindən 6 nəfər hərbi təmayüllü məktəblərə (1 nəfər H.Əliyev adına MTA-na, 2 nəfər Tibb Universitetinə-hərbi həkim, 3 nəfər C.Naxçıvanski adına hərbi litseyə) daxil olmuşlar. Lakin hələ də bu qənaətləndirici nəticə deyildir.

Onu da qeyd edim ki, yüksək nəticəyə nail olmuş rayon məktəbləri ilə yanaşı keçən il aşağı nəticə göstərmiş məktəblərimiz də vardır. Belə ki, Süleymanlı (Ələkbər İsmayılov),1 saylı (Ramiz İmanov), 11 saylı (Əhməd Əhmədov), Mehdili (Akif Allahverdiyev), 2 saylı (Məhəmmədəli İmamverdiyev) tam orta məktəblərdə ali məktəblərə sənəd verənlərin qəbulu 50 faizdən aşağı olmuşdur. Aşağıdakı məktəblər üzrə isə attestat almış məzunlardan ali məktəblərə sənəd verənlərin sayı az olanlar - Minbaşılı (İsmayıl Quliyev), Yuxarı Mərcanlı (Elsevər Kalbalıyev), Dəmşəlaq (Yunis Hümbətəliyev), 10 saylı (Elçin Kalbalıyev), 25 saylı (Taleh Qaraşov), 9 saylı (Vəli Cəlilov), 14 saylı (Əli Mirzəyev), Böyük Mərcanlı (Oqtay Rüstəmov), 18 saylı ( Mehrac Quliyev).

Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli Sərəncamına əsasən 2016-cı ilin fevral ayından Cəbrayıl rayon Təhsil Şöbəsinin Mərkəzləşdirilmiş mühasibatlığı və Təsərrüfat Xidməti bürosu Salyan Regional mərkəzinin nəzdində fəaliyyət göstərəcəkdir.

**Rayon Təhsil şöbəsinin müdiri Validə Həsənova yeni struktura keçidlə əlaqədar tələb olunan maliyyə materiallarının vaxtında Salyan Regional Mərkəzinə təqdim olunmasını təmin etməli, hərbi təmayüllü məktəblərə şagird qəbulunun artırılması istiqamətində məktəblərdə maarifləndirici işləri gücləndirməli, keçən tədris ilində aşağı qəbul nəticəsi göstərmiş ümumtəhsil məktəblərində təlim işini yüksəltməlidir.**

***

Rayon Mədəniyyət və Turizm şöbəsinin mədəniyyət müəssisələri 2015-ci ildə ideoloji təbliğat işini davam etdirmiş, əhaliyə göstərilən mədəni xidmətin səviyyəsini yüksəltmiş, rayon İcra hakimiyyətinin qayğısı və dəstəyi nəticəsində müxtəlif xarakterli rayon tədbirləri hazırlayıb həyata keçirmişlər. Yeni il şənliyi, 02 fevral Gənclər günü, 05 mart Bədən tərbiyəsi və İdman günü, 08 mart ”Beynəlxalq qadınlar günü”, 20 mart Novruz bayramı ilə əlaqədar şənliklər, faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş müxtəlif sərgilər, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Mədəniyyət və İstirahət parkında möhtəşəm Gül bayramı, həmçinin 20 Yanvar - Milli Hüzn günü, 25-26 fevral tarixlərində ”Xocalı soyqırımı”, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı anım tədbirləri hazırlanıb keçirilmişdir. Azərbaycan Respublikasının Silahlı qüvvələri günündə 24, 25 və 26 iyun 2015-ci il tarixlərdə şöbənin musiqi kollektivi ”Murov dağı” döyüş bölgəsindəki “N” saylı hərbi hissədə olmuş, əsgər və zabitlər qarşısında maraqlı konsert proqramı ilə çıxış etmişdir.

Lakin bununla belə Mədəniyyət və Turizm şöbəsinin müdiri Kamran Quliyev Biləsuvar rayonu ərazisindəki qəsəbələrlə yanaşı, əhalimizin kompakt məskunlaşdığı digər yaşayış məntəqələrində də mədəni-kütləvi tədbirlərin keçirilməsini təmin etməli, ölkəmizdə tanınmış ədibləri gənc nəslə daha yaxından tanıtmaq məqsədi ilə onların yubley tədbirlərinin keçirilməsinə diqqət yetirməlidir.

Rayon əhalisi, xüsusən də gənclər və yeniyetmələr arasında milli-mənəvi dəyərlərimizə hörmət hissinin aşılanması, onların islam dininə yad olan dini cərəyanların təsirindən qorunması istiqamətində işlər davam etdirilmiş, bu məqsədlə ümumtəhsil məktəblərində, idarə və müəssisələrin kollektivlərində, kompakt yaşayış məntəqələrində təbliğat-izahat işləri aparılmışdır. Belə ki, bu il sentyabr ayının 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Cəbrayıl rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün salınmış 4 saylı qəsəbənin klubunda ”Milli mənəvi dəyərlərimiz və müasirlik” mövzusunda müşavirə keçirilmişdir. Müşavirədə Komitənin sədri Mübariz Qurbanlı, ziyalılar, din adamları, gənclər mövzu ilə əlaqədar əhatəli çıxış edərək islam dininin ona aid olmayan yad təsirlərdən qorunması istiqamətində iş aparılmasının, maarifləndirmə tədbirlərinin genişləndirilməsinin vacibliyini vurğulamışlar.

Rayon gəncləri arasında idmana marağın artırılması istiqamətində müvafiq işlər görülmüş, onların idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün rayonda idman klubları və bölmələri təşkil edilmişdir. Hazırda klub və bölmələrdə 1493 nəfər idmanla məşğul olur və 81 məşqçi-müəllim onların öyrədilməsi ilə məşğuldur. Rayon Gənclər və İdman idarəsinin xətti ilə 2015-ci il ərzində 20 yanvar Şəhidlərinin xatirəsinə həsr olunmuş 60 nəfər şahmatçının iştirakı ilə şahmat turniri, kişilər arasında nərd, 11 komandanın iştirakı ilə gənclərin yaz və payız çağırışına həsr olunmuş VMH poliatlon çoxnövçülüyü, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə 12 komandanın iştirakı ilə 11-12 yaşlı yeniyetmələr arasında futbol yarışı, rayonda voleybol idman növünün inkişafı və perspektivli idmançıların aşkar edilməsi məqsədi ilə 16 komandadan ibarət gənclər arasında rayon birinciliyi, 61 idmançının iştirakı ilə dama üzrə rayon çempionatı, 2001-2002-ci il təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş üzrə açıq rayon birinciliyi keçirilmiş, qalib komandalar Rayon Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları ilə təltif olunmuşlar.

Cəbrayıl rayon Gənclər və İdman İdarəsi nəinki rayon gənclərinin, eyni zamanda Respublikamızda tanınmış əslən Cəbrayıllı idmançıların uğurları ilə də həmişə maraqlanmış və onları dəstəkləmişlər: Taekvando üzrə Avropa çempionu Azər Ağəli oğlu Süleymanov, Aşihakarate üzrə dünya çempionu Namiq Qüdrət oğlu Məmmədov, VKC idman növləri üzrə Avropa çempionatında 2-ci yer tutmuş İsmayıl Fərhad oğlu Babaşov, Kikboksinq üzrə Avropa yarışlarında 1-ci yer və kəmərə layiq görülmüş Musa Təşkilat oğlu İsayev və başqaları.



# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."

SON SƏHİFƏ № 01 - 02 (6763-6764) 2 fevral 2016-cı il


*Bir qızlıq isməti - müəllim namusu!*
*Bir el məhəbbəti - müəllim nüfuzu!*
*Bahar nəsimi tək - müəllim nəfəsi!*
*Mehi könüllərə təzə ruh verir!*

**Ş.ƏLİFOĞLU**

# Xatirələrdə yaşayacaq



Rayonumuzun pedaqoji ictimaiyyətinə ağır itki üz vermişdir. Məhərrəm Nayfalı oğlu Quliyev yanvarın 6-da ömrünün 67-ci ilində vəfat etmişdir.

Məhərrəm Nayfalı oğlu Quliyev 1 noyabr 1949-cu ildə rayonumuzun Böyük Mərcanlı kəndində anadan olmuşdur. Doğulduğu kənddəki orta məktəbdə təhsil almışdır. 1967-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur.

Dövlət İmtahan Komissiyasının 1972-ci il 29 iyun tarixli qərarı ilə riyaziyyatçı, riyaziyyat müəllimi ixtisasına yiyələnmişdir.

Məhərrəm Quliyev müəllimlik fəaliyyətinə də elə doğulduğu Böyük Mərcanlı kəndindən başlamışdır. Burada o, şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmuş, bir müəllim kimi onlara riyazi biliklərin öyrədilməsində yorulmaz pedaqoji əmək sərf etmişdir. Gözəl pedaqoq kimi riyaziyyatın sirlərini onlara aşılamışdır. Onun yetirmələrinin səs-sorağı keçmiş SSRİ-nin ayrı-ayrı guşələrindən, mötəbər yerlərdən gəlmişdir. Elə bunun məntiqi nəticəsidir ki, o, baş müəllim dərəcəsinədək yüksəlmişdir.

Məhərrəm müəllim pedaqoji fəaliyyəti ilə yanaşı, həm də doğma el-oba qarşısında bir xeyirxah insan, el ağsaqqalı kimi böyük hörmət sahibi idi. Kəndin və ətraf kəndlərin xeyirində-şərində həmişə yaxından iştirak edər, camaata yeri gəldikdə öz faydalı məsləhət və tövsiyələrini də verərdi.

1993-cü ildə Cəbrayıl rayonunun işğalı ilə əlaqədar Qobustan rayonunda, 1996-cı ildən isə Bakı şəhərində məskunlaşmışdır. 2014-cü ildə yaşı ilə əlaqədar əmək pensiyasına çıxmışdır.

Məhərrəm Nayfalı oğlu Quliyev həm də cəmiyyətdə nümunəvi bir ailə başçısı kimi tanırdı. O, 1976-cı ildə həmkəndliləri olan Sona Məstalı qızı Qarayeva ilə ailə həyatı qurmuş, bu izdivacdan 3 oğul övladı dünyaya gəlmişdir. Yaxşı həyat yoldaşı, yaxşı ata olan Məhərrəm müəllim həm də 8 nəvə sahibi kimi bəxtəvər baba ömrü yaşayırdı. Oğlanları da ali təhsil alıb, vaxtında-vədəsində evlənib, ailə-uşaq sahibi olublar. Belə ki, övladları - Quliyev Ramil Məhərrəm oğlu, 03.07.1978-ci ildə Cəbrayıl rayonu Böyük Mərcanlı kəndində anadan olmuşdur. Ali təhsillidir. Azərbaycan Dövlət İqtisad Universitetini bitirmişdir. Ailəlidir, 3 övladı var. Quliyev Akif Məhərrəm oğlu, 10. 04.1980-cı ildə Cəbrayıl rayonu Böyük Mərcanlı kəndində anadan olmuşdur. Ali təhsillidir. Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetini bitirmişdir. Aqrar elmləri üzrə fəlsəfə doktorudur. Ailəlidir, 2 övladı var. Quliyev Rüfət Məhərrəm oğlu, 13.04.1982-ci ildə Cəbrayıl rayonu Böyük Mərcanlı kəndində anadan olmuşdur. Ali təhsillidir. Azərbaycan Dövlət Texniki Universitetini bitirmişdir. Ailəlidir, 3 övladı var.

Bu yığcam təqdimatdan da açıq-aydın görünür ki, Məhərrəm Quliyev ictimaiyyət arasında sayılıb-seçilən xeyirxah bir el ağsaqqalı olduğu kimi, həmçinin xoşbəxt bir ailənin də başçısı idi. Bu mənada onun həyatı hamı üçün nümunə götürüləsi bir həyat məktəbi idi.

Müəllimliyi ilə pedaqoji kollektivin və şagirdlərinin, ağsaqqallığı ilə elinin-obasının böyük hüsn-rəğbətini qazanmış, valideyn kimi isə ailəsinin dərin sevgisini qazanmış Məhərrəm Nayfalı oğlu Quliyevin əziz xatirəsi onun tanıyanların, dostlarının və əzizlərinin xatirələrində daimi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

*"Xudafərin"*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA VAKANT OLAN ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

**Respublikanın şəhər, rayon polis idarə və şöbələrində /Naxçıvan MR, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ orta rəis heyəti vəzifələrinə hüquqşünas ixtisaslı mütəxəssislərin xidmətə qəbulu ilə əlaqədar müsabiqə keçirilir.**

**Cəmi 150 vəzifənin tutulması ilə əlaqədar keçirilən müsabiqə müsahibədən və test imtahanından ibarətdir. Müsahibə - "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə, test imtahanları - müsahibədən müvəffəqiyyətlə keçmiş namizədlərlə daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən qanunvericiliyə, insan hüquq və azadlıqlarına dair beynəlxalq aktlara aid, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən proqram və onu əhatə edən suallar üzrə Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilir.**

**Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası almış (xarici dövlətlərin təhsil müəssisələrinin yalnız əyani şöbəsini bitirmiş və ixtisasları Azərbaycan Respublikasında tanınmış), yaşı 30-dan yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün),özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.**

**Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.**

**Müsabiqədə iştirak etmək istəyən şəxslər elektron ərizə formasını (buradan yükləyin) şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.**

**Elektron ərizənin Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsində qeydə götürülməsi barədə elektron poçt vasitəsi ilə müvafiq məlumat aldıqdan sonra namizədlər yaşadıqları ərazi polis idarələrinə, şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:**

**şəxsiyyət vəsiqəsi;**
**ali təhsil haqqında diplom;**
**hərbi bilet;**
**əmək kitabçası (olanlar üçün);**

**Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.**

**Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.**

**"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.**

**Müsabiqədə iştirak etmək üçün sənədlər 2016-cı il yanvar ayının 21-dən fevral ayının 21-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10-dan 18-dək şəhər, rayon polis idarə və şöbələrində qəbul olunur.**

**Əlavə məlumat almaq üçün əlaqə telefonu:**
**(026) 384-36-02**

## İtmişdir

**Cəbrayıl rayon Hərbi Komissarlığı tərəfindən Süleymanov Nicat Mirsavlı oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

***Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Mahmud Quliyevə, qardaşı Məhərrəm Nayfalı oğlunun***

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

Cəbrayılov Həsən Bəhlul oğlu
Hüseynov Məhəmməd Qasım
Rüstəmov Əli Murtuza oğlu
Məmmədova Telli Mahmud
Mehdizadə Xasay Ağalar
Qasımov Yaqub Musa oğlu
İbrahimli Baxış Mətləb oğlu
Hüsüyeva Lala Məhəmməd
Vəliyeva Nübar İmamqulu
Əhmədov Möhübbəddin Xanlar
Məmmədov Məmməd Ağalar
Süleymanova Xavər Əli
Xudayarov Tofiq Elman
Hacıyeva Həlimə Nəbi qızı
Əhmədova Ayna Xıdır
Səmədli Nuranə Fəxrəddin
Abdullayeva Solmaz Əbülfət
Allahverdiyeva Tənzilə Allahverdi
Əliyev Zakir Qaraş
Məmmədov Məhəmməd Şirin
Rüstəmov Vahid İdris oğlu
Əliyeva Durna Mehdi qızı
Baxışova Şəhla Baxış qızı
İmranov İnayət Valeh
Məmmədov İsmayıl Abdulla
Təhməzov Mustafa Gəray
Haqverdiyeva Nazxanım Məhərrəm
Əhmədova Qiymət İsax
Sadıqov Həsən Cürə
Mirzəliyeva Telli Salman
Cavadov Əbdül Bilal
Şirinova Mənsumə Mikayıl
Məmmədli Nigar Zülfiqar
Zülfüqarov Zülfüqar Məhəmməd
Əhmədova Şamama Əli
Səfərov Fikrət Muxtar
Qaraşov Kərim Əmrah
Qaraşova Şövkət Hacı qızı
Sadıqova Dilbər Ramazan
Təhməzova Gülzaman Əhməd
Cəfərov Paşa Həmid oğlu
Cəfərov Cəfər Səfər oğlu
İsrəfilov Qərib Yusif oğlu
Qəhrəmanova Reyhan Səmid
İmanova Ərkinaz Alıqulu
Mürsəlov Qulu Vəli oğlu
Rüstamov Xasay Atakişi
Həşimov Fehruz Göyüş oğlu
İsmayılov Allahverən Bayram
Əlimirzəyev Cavanşir Əliaslan
Rzayev Qənbər Bilal oğlunun

**vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**


Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1037, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə "Azərbaycan" nəşriyyatı.
**Telefon:** (050) 644-96-65

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Açıq Səma" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
Sifariş №:**343**
**Tiraj: 1000**

# 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələr barədə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı M. N. Quliyevin

## Hesabatı

Cəbrayıllı gənclər rayondan kənarda da keçirilmiş tədbirlərdə - Saatlı şəhərində sərbəst güləş üzrə zona birinciliyində, mart ayında Astara şəhərində "05 mart-Bədən tərbiyəsi və idman günü"nə həsr olunmuş kişilər arasında ölkə turnirində, Bakı şəhərində, Hövsan Olimpiya kompleksində VKC idman növü üzrə uşaq, yeniyetmə və gənclər arasında Azərbaycan Çempionatında, Horadiz Şəhərində "Şahin" hərbi-idman oyunlarının zona mərhələsində, Salyan şəhərində sərbəst güləş üzrə Region birinciliyində, Bakı şəhərində sərbəst və yunan-roma güləşi üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyində, Zaqatala şəhərində Şahmat üzrə 16 yaşadək, İsmayıllı şəhərində VKC idman növü üzrə Azərbaycan Çempionatında, Salyan şəhərində Helsinki Olimpiya oyunlarının Gümüş mükafatçısı Rəşid Məmmədbəyovun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə zona birinciliyində fəal iştirak etmişlər.

Lakin bununla belə rayon gənclərinin intellektul səviyyələrinin artırılması, onların ictimai faydalı əməyə cəlb edilməsi, vətənpərvər, bilikli, qabiliyyətli gənc nəslin yetişdirilməsi üçün bundan sonra da ardıcıl və məqsədyönlü işlər həyata keçirilməlidir. Bunun üçün **Rayon Gənclər və İdman idarəsinin rəisi Emil Məstəliyev, əlaqədar təşkilatların rəhbərləri və icra hakimiyyəti başçısının sahə üzrə müavini Fəridə İbayeva yeniyetmə və gənclərlə aparılan işi daha da yaxşılaşdırmalıdırlar.**

***

2015-ci il ərzində Rayon İcra hakimiyyəti başçısı aparatına 896 vətəndaş müraciəti daxil olmuşdur. Bunlardan 53 ədədi Prezident Administrasiyasından, 4-ü Milli Məclisdən, 88-i Nazirlər Kabinetindən, 36-sı digər Respublika təşkilatlarından olmaqla ümumilikdə 181 ədədi yuxarı təşkilatlardan, 715 ədədi isə birbaşa vətəndaşlardan daxil olmuşdur. İcra Hakimiyyəti və digər rayon təşkilatları tərəfindən vətəndaşları narahat edən məsələlərin həllinə diqqətin daha da artırılmasının nəticəsidir ki, yuxarı təşkilatlardan daxil olmuş müraciətlərin sayı ötən illə müqayisədə demək olar ki, 2 dəfə azalmışdır.

Daxil olmuş müraciətlərdən 705-i maddi yardım və əhalinin sosial müdafiəsi, 87-si mənzil, 22-si ailə və məişət məsələləri, 20-si RİH-nin fəaliyyəti haqqında, 19-u sahibkarlığın inkişafı, 17-si kənd təsərrüfatı, 9-u səhiyyə, 9-u hüquq məsələləri, 2-si təhsil, 2-si elektrik enerjisi və istilik təchizatı, 2-si nəqliyyat, 2-si isə minnətdarlıqla bağlı olmuşdur. Çoxluq təşkil edən müraciətlərə daha çox diqqət göstərilmişdir. Rəqəmlərdən də göründüyü kimi müraciətlərin böyük hissəsini birdəfəlik maddi yardımın göstərilməsi və mənzil şəraitinin yaxşılaşdırılmasına dair müraciətlər təşkil edir. Maddi yardım göstərilməsi ilə bağlı bütün müraciətlər araşdırılmış və köməyə ehtiyacı olan müraciət müəlliflərinə lazımi köməklik göstərilmişdir. Mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı müraciət edənlərin bir çoxu yeni mənzillərlə təmin edilmiş, qalanlarına isə köçürülmə prosesinin Dövlət Proqramına uyğun olaraq mərhələli şəkildə Dövlətqaçqınkom tərəfindən həyata keçirilməsi barədə müvafiq izahatlar verilmişdir. Digər mövzularda olan müraciətlərlə bağlı da müvafiq tədbirlərin görülməsi təmin olunmuşdur.

***

Respublika Prezidentinin "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Fərmanına uyğun olaraq RİHB aparatında Vahid İnformasiya sistemi quraşdırılmış və 22 aprel 2015-ci il tarixdən başlayaraq birbaşa vətəndaşlardan və yuxarı dövlət orqanlarından daxil olan müraciətlərin sistemə işlənməsi təmin olunmuşdur. Rayon İcra Hakimiyyətinin müvafiq Sərəncamı ilə informasiya sisteminin məsul şəxsləri və sistem istifadəçiləri müəyyən edilmiş, sistemin tam təhlükəsiz fəaliyyət göstərməsi üçün bütün şərait yaradılmışdır. Vahid informasiya sisteminin tətbiq edilməsi vətəndaş müraciətlərinə baxılmasında operativliyin təmin olunmasına şərait yaratmışdır. 22 aprel - 30 dekabr 2015-ci il tarixlərində ümumilikdə 691 vətəndaş müraciəti sistemə daxil edilmişdir.

***

Respublika rəhbərliyinin tövsiyələrinə uyğun olaraq vətəndaşların problemlərinin daha yaxından öyrənilməsi və bilavasitə yerlərdə müvafiq tədbirlərin görülməsi məqsədi ilə səyyar qəbulların keçirilməsi diqqət mərkəzində saxlanılmışdır. 2015-ci il ərzində rayon əhalisinin sıx məskunlaşdığı bölgələrdə - Bakı şəhərinin ayrı-ayrı rayonlarında və Rayon qərargahında 69, Biləsuvar rayonu ərazisindəki qəsəbələrdə 12, Sumqayıt şəhərində 6, Abşeron rayonunda 4, Sabirabad rayonunda 3, Qaradağ rayonunda 2, Kürdəmir, İsmayıllı, Qobustan, Hacıqabul rayonlarının hər birində 2 dəfə, Saatlı, Şəmkir, Gəncə, Yevlax, Mingəçevir, Şəki, Qax, Zaqatala, Şamaxı, Şirvan və Şabran rayonlarının hər birində 1 dəfə olmaqla ümumilikdə 115 səyyar görüş-qəbul keçirilmiş, görüşlərdə 3000 nəfərdən çox rayon sakini iştirak etmiş və onlar tərəfindən 427 təklif səsləndirilmişdir. Səsləndirilmiş təkliflərdən 205-i və ya 48 faizi müsbət həll edilmiş, 222-si barədə isə müvafiq tədbir görülmüşdür.

Vətəndaşlardan daxil olmuş təkliflərin 10-u gənc ailələrin ailə təsərrüfatından ayrılması, 15-i ölkədaxili qeydiyyat məsələləri, 12-si torpaq, 28-i təhsil, 3-ü səhiyyə, 85-i mənzil, 1-i məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları ictimai binaların təmiri, 2-si sosial obyektlərin tikintisi, 1-i sosial obyektlərin təmiri, 1-i sosial obyektlərin təchizatı, 22-si işlə təmin olunma, 5-i əmək haqqı məsələsi, 1-i elektrik enerjisi təchizatı barədə, 5-i içməli su təchizatı, 8-i suvarma suyu təchizatı, 7-si yemək xərci müavinəti məsələləri, 4-ü məcburi köçkün statusu məsələsi, 162-si birdəfəlik maddi yardım göstərilməsi, 1-i məhkəmə orqanlarının fəaliyyəti, 8-i yol, 2-si məişət məsələləri, 1-i idman, 2-si Ünvanlı Sosial Yardım, 3-ü pensiya, 3-ü plastik kart, 4-ü minnətdarlıq, 31-i isə digər cari məsələlərlə bağlı olmuşdur.

***

Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin tələblərinə uyğun olaraq Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı yanında Şuranın 2015-ci il ərzində 28 iclası keçirilmiş və 30 məsələ müzakirə edilmişdir.

Müzakirə edilən məsələlərdən 4-ü ilin və rübün sosial-iqtisadi inkişafının yekunları, 1-i nümayəndəliklərdə keçirilmiş hesabat yığıncaqları, 2-si hesabat yığıncaqlarında və səyyar görüş-qəbullarda vətəndaşlar tərəfindən irəli sürülmüş təkliflərin icrası, 1-i əhalinin ümumi profilaktik tibbi müayinələrə cəlb olunması, 1-i Regionların İnkişafının Analitik İnformasiya Sistemi (RİAİS) üzrə rayon göstəricilərinin müqayisəli təhlili, 1-i rayon üzrə hüquqi və fiziki şəxslərdə mövcud olan texnika və avadanlıqlara texniki nəzarətin həyata keçirilməsi sahəsində rayon Texniki Nəzarət Müfəttişliyi tərəfindən aparılan işlərin vəziyyəti, 1-i Rayon gəncləri arasında vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi və idmanın kütləviliyinə nail olunması məqsədi ilə yeniyetmə və gənclərin müxtəlif növ idman klublarına cəlb olunması istiqamətində rayon İcra hakimiyyəti, Gənclər və İdman idarəsi, Təhsil şöbəsi və fəaliyyətdə olan idman klubları tərəfindən görülən işlər barədə, 1-i Rayon İcra hakimiyyətinin aparatında və inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə çalışan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinin yekunu, 1-i Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin tələblərinə uyğun olaraq 2014-cü il ərzində Rayon İcra Hakimiyyətinə daxil olmuş İnzibati hüquqpozma protokolları ilə əlaqədar həyata keçirilən tədbirlər, 1-i Rayon əhalisinin kompakt məskunlaşdığı Biləsuvar rayonu ərazisindəki qəsəbələrdə ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən tullantıların yığılması və zərərsizləşdirilməsi, yol kənarlarında və əhalinin asudə vaxtını keçirmək üçün nəzərdə tutulan ictimai yerlərdə abadlıq, təmizlik və yaşıllaşdırma işlərinin gedişi, 1-i Rayon İcra Hakimiyyəti başçısının şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərində təsərrüfatbaşına uçot kitablarının işlənmə vəziyyəti, 1-i inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə əhali ilə aparılan iş, sənədlərlə işin təşkili və vətəndaşlara göstərilən kargüzarlıq xidmətinin vəziyyəti barədə, 1-i Rayonun ümumtəhsil məktəblərinin 11-ci sinif şagirdlərinin Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin öyrənilməsi və təbliği məqsədi ilə keçirilən dərslərin yekunu, 1-i Rayonun ümumtəhsil məktəblərində aparılmış təmir-tikinti və abadlıq işlərinin vəziyyəti haqqında, 1-i "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 503 nömrəli Fərmanının icrası ilə əlaqədar görülmüş işlər, 1-i "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014 - 2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar rayon icra hakimiyyətinin nəzdində fəaliyyət göstərən qəyyumluq və himayəçilik üzrə, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların gördüyü işlər, 1-i Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramının icrası ilə əlaqədar rayonda görülən işlər barədə, 1-i Rayonda epizootik vəziyyətə nəzarətin həyata keçirilməsi sahəsində Rayon Baytarlıq idarəsi tərəfindən həyata keçirilən tədbirlər barədə, 1-i Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən əhalinin sıx məskunlaşdığı qəsəbələrdə yoluxucu xəstəliklərə qarşı profilaktik və əks epidemik tədbirlərin həyata keçirilməsi vəziyyəti barədə, 1-i Azərbaycan Respublikasının Seçki məcəlləsinə uyğun olaraq daimi seçici siyahılarına daxil edilmək üçün aktiv seçki hüququna malik olan seçicilər haqqında məlumatların dəqiqləşdirilməsi və aidiyyəti üzrə DSK-ya təqdim edilməsinin vəziyyəti barədə, 1-i rayon əhalisinin sıx məskunlaşdığı yaşayış məntəqələrində milli-mənəvi və dini dəyərlərimizin təbliği, dini bayramların, xeyir və yas mərasimlərinin təklif olunan qaydalara uyğun keçirilməsi üçün rayonda həyata keçirilən tədbirlər barədə, 1-i rayon əhalisinin sıx məskunlaşdığı Biləsuvar rayonu ərazisində salınmış qəsəbələrdə və digər yaşayış məntəqələrində narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması məqsədi ilə "Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə" Rayon komissiyasının müvafiq orqanlarla birlikdə həyata keçirdiyi tədbirlər barədə, 1-i Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş 2014 - 2020 - ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı konsepsiyasının icrası ilə əlaqədar DSMF rayon şöbəsi tərəfindən görülən işlər barədə, 1-i Biləsuvar rayonu ərazisində Cəbrayıl rayon məcburi köçkünləri üçün inşa edilmiş qəsəbələrdə qış mövsümünə hazırlıqla bağlı ayrı-ayrı idarə və müəssisələr tərəfindən əhaliyə göstərilən xidmətin vəziyyəti haqqında, 1-i "2008 - 2015- ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nin icrası ilə əlaqədar rayonda görülən işlər barədə", 1-i 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaqla etibarlı təminatına dair" Dövlət Proqramı"nın icrası olaraq heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və arıçılığın inkişaf etdirilməsi sahəsində rayonda həyata keçirilən tədbirlər barədə və Şuranın 2015-ci il üçün iş planının təsdiqi haqqında olmuşdur.

2015-ci il ərzində Cəbrayıl Rayon İcra hakimiyyətində keçiriləcək müşavirələrin perspektiv İş planına uyğun olaraq 7 müşavirə keçirilmiş və 8 məsələ müzakirə edilmişdir. Müşavirələrdə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 05 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı görülən işlər barədə, Biləsuvar rayonu ərazisindəki qəsəbələrdə yol kənarlarında tikilmiş xidmət obyektlərinin həyətinin abadlaşdırılması istiqamətində görülən işlərin vəziyyəti haqqında, "Qarabağı tanıyaq, Cəbrayılı sevək" mövzusunda rayonun ümumtəhsil məktəblərində keçirilən dərslər barədə və RİAİS-ə daxil olan rayonun ayrı-ayrı sahələrini əks etdirən şablonların işlənməsi qaydalarının izahı barədə, Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə uyğun olaraq 2015-ci ildə Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 35.2-ci, 46.4-cü, 46.5-ci, 46.15-ci, 87.6-cı və 98.1-ci maddələri ilə yerli icra hakimiyyətlərinə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinin vəziyyəti barədə, Rayon İcra hakimiyyəti başçısının aparatında və ərazi nümayəndəliklərində çalışan dövlət qulluqçularının "etik davranış qaydaları" haqqında qanunun tələbləri ilə bağlı maarifləndirilməsi haqqında, Rayon icra hakimiyyəti başçısının aparatında vətəndaşların qəbulu, onların ərizə, təklif və şikayətlərinə baxılması işinin vəziyyəti haqqında və Rayon icra hakimiyyəti başçısının aparatında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə, İcra hakimiyyətinin yanında olan qurumlarda və tabeliyində olan hüquqi şəxslərdə sənədlərlə işinin təşkili və dövlət arxivinə təhvil verilməsi verilməsi qaydalarına əməl edilməsinin vəziyyəti barədə məsələlər müzakirə olunmuşdur.

***

**Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarını əmin edirəm ki, həmişə dövlətçiliyə, Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinə sədaqətli olmuş biz Cəbrayıllılar, möhtərəm Prezidentimizin rəhbərliyi ilə uğurla davam etdirilən siyasi kursu dəstəkləyəcək, onun ətrafında sıx birləşməklə Azərbaycanın parlaq gələcəyinin, ərazi bütövlüyünün, suverenliyinin təmin olunması, xalqımızın rifahı, tərəqqisi və doğma Qarabağ torpaqlarımızın erməni təcavüzündən azad edilməsi istiqamətində apardığı məqsədyönlü siyasətə daim yardımçı olacağıq.**